# AZƏRBAYCANDA MÜƏLLİMLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN VƏ MƏKTƏBDƏ TƏLİM TƏCRÜBƏSİNİN ÖYRƏNİLMƏSİ XXI ƏSRƏ DOĞRU

***Alan N. KROFORD****
*(Kaliforniya Dövlət Universitesi, Los-Anceles, ABŞ)*

**GİRİŞ**

Bu tədqiqat işi bizim üç əsas mənbədən əldə etdiyimiz problemlərin öyrənilməsinə yönəlmişdi. Birincisi, Azərbaycan Respublikası Təhsil naziri dr. Misir Mərdanovun həyəcanla söylədiyi sözlər. Nazir və onun işçiləri ilə görüş zamanı o, təhsil sahəsində olan irəlilyişə misal göstərərək dedi ki, Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin köməyi və qayğısı sayəsində Azərbaycanda təhsilin daha da inkişaf etdirilməsi üçün bir çox sənədlər və deklarasiyalar işlənib hazırlanmışdır. O, əyani misal olaraq, adətən, qrammatika-tərcümə metoduna əsaslanan xarici dillərin tədrisini göstərdi. Nazir bu cür tədris metodunun çatışmazlıqlannı göstərməklə bərabər, türk məktəblərində müvəffəqiyyətlə istifadə olunan fəal öyrənmə strategiyalarına marağını bildirdi. Bu, passiv dinləmə və əzbərləməyə əsaslanan keçmiş Sovet sisteminin birbaşa təlim modelindən düşüncə və anlamaya əsaslanan yeni fəal və qarşdıqlı öyrənmə modelinə doğru bir hərəkət kimi qiymətləndirilə bilordi.

Təhsil nazirinin çıxışı ilə razılaşan Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun rektoru İsa Məmmədov təklif edir ki, sual-cavab metodu təhsildə ən yaxşı nəticələr əldə etmok üçün çox mühüm tolim metodudur. O tövsiyə edirdi ki, müəllimlər elə məsələləri təqdim etməlidirlər ki, onlara verilən cavabların özü yeni bir problemin yaranmasını şərtləndirsin. Əlbəttə, təlimdə bu cür dəyişiklik müəllimlərin təkmilləşdirilməsi işini müvəffəqiyyətli islahatların aparılması üçün əsas sahə edir.

Təhsil Nazirliyinin həyata keçirdiyi başqa bir vacib iş Azərbaycanda təhsil islahatının həyata keçirilməsi üçün lazımi təminatın yaradılmasıdır. Buraya nələr daxildir: uşaqlara, sadəcə olaraq, biliklərlə

**'Alan N. Crawford (originalda).**

təmin olunan bir varlıq kimi deyil, daima inkişafda olan bir canlı кimi yanaşmaq, demokratikləşməyə doğru meyl, müəllimlər arasında kollegiallığa daha çox maraq oyatmaq, tələbəyə təhsildə bərabərhüquqlu tərəf müqabili kimi baxmaq.

Bizim üçün ikinci əsas mənbə müraciət etdiyimiz xarici təşkilatların rəyləri idi: Dünya Bankının maliyyələşdirdiyi "Azərbaycanda təhsil bölməsi işçi qrupunun" Azərbaycanda təhsil islahatının həyata keçirilməsində iştirakı. Dünya Bankının təhsilə dair hazırladığı sənəddə deyilir: "Bu proqram (Təhsil Bölməsinin İslahat Proqramı) müəyyən etmişdir ki, tədris plan-proqramlarının islahatı və müəllim hazırlığı məsələləri təhsil islahatının müvəffəqiyyətlə həyata keçirilməsi üçün iki əsas sahədir. Müəllim fəallığının artırdması bu proqramda əsas elementdir. Müəllim hazırlığı iki mühüm cəhəti özündə birləşdirir a)yeni plan-proqramların həyata keçirilməsi müəllimləin bu işə necə hazır olmalarından asılıdır, b) müəllimləri xüsusilə şagird yönələı yeni alternativ təlim metodlarına kcçməyə hazırlamaq, fəal öyrənmə metodlarına yer vermək lazımdır ki, bu da yeni plan-proqramlarda öz əksini tapmalıdır".

Üçüncü əsas mənbə bu tədqiqatı maliyyələşdirən ABŞ Dövlət Dcpartamenti idi. ABŞ-ın Bakıdakı səfirliyinin ictimai əlaqələr şöbəsinin müdiri dr. Kreq Dikerin dediyi kimi, bu tədqiqat ibtidai və orta məktəb müəllimlərinin təkmilləşdirilməsi xüsusiyyətini, müasir və Sovet dövrü təlim modellərinin forqini və təqdim olunan təhsil islahatları cəhdlərinə uyğun olaraq müəllimləri təkmilləşdirməyin perspcktiv xüsusiyyətini öyrənməlidir.

## Tədqiqatın məqsədi

Tədqiqatda üç əsas məqsəd qarşıya qoyulmuşdu. Birincisi Azərbaycanda ibtidai və orta məktəb müəllimlərinin təkmilləşdirilməsinin xüsusiyyotini müəyyən etmək, bu işin hüquqi əsaslarını necə həyata keçirildiyini, müəllimləri təkmilləşdirməyə özlərinin münasibəti, görülən işin keyflyyət və kəmiyyəti, təqdim olunan təhsil islahatlarında bu sahədə aparılan doyişikliklori də əhatə edirdi.

İkincisi Azərbaycan məktəblərində tədrisin təşkili təcrübəsini, metodologiya və strategiyalarını müəyyənləşdirmək idi.

Üçüncü əsas məqsəd Azərbaycanda həm müəllimləri təkmilləşdirmə, həm də dərslərin təşkili təcrübəsinə təsir edən amilləri müəyyən etmək idi. Bu üç əsas məqsədi askara çıxarmaqdan əlavə, keçmiş

Sovet təhsil sisteminin müasir təlim modellərinə təsirini müəyyən etmək və ölkə müstoqillik qazandıqdan sonra təhsildə olan dəyişikliklərin miqyasını aşkar etmək idi.

### Tədqiqata ehtiyac

Bütün digər post-Sovet məkanlan kimi, Azərbaycanda da SSRI-dən miras qalmış təhsil sistemi var. Bu təhsil sistemi daim müasir stıukturlara və təcrübəyə öz əsas təsirini göstərir. Bu mirasın bəzi təsiri tamamilə müsbətdir, məsələn, riyaziyyatdan və təbiət elmlərindən, xüsusilə fızika elmlərindən olan proqramlar hələ də öz gücünü saxlayır. Bununla belə, faktik informasiyanın əzbərlənməsinə və yadda saxlamaya yönəldilən mühazirə tipli dərs forması demək olar ki, ibtidai və orta məktəblərdə bütün sinifləri və fənləri əhatə edir.

### Tədqiqatın metodologiyası və faktların toplanması mənbələri

Tədqiqatda faktların toplanmasında üç mənbəyə istinad edilmişdi. Birincisi dövlət və qeyri-dövlət nəşrlərindon, müxtəlif təşkilatların və todqiqatçıların hesabatlarından və rəsmi sənədlərdən əldə olunan faktlardır. Bu sonodlordon ingilis dilindo olmayanlar torcümoçilər vasitəsilə öyrənilmişdir. Uyğun və lazımi hissolər təhlil olunmaq üçün ingilis dilinə tərcümə olunmuş və onlara müəyyən istinadlar verilmişdir. Tədqiqat zamanı iki tərcüməçi ilə işləmək lazım gəlmişdir. Onların hər ikisi Azərbaycan, rus və ingilis dillərini çox gözəl bilən universitet tələbəsi idi. Hər ikisi son məktəb ilini ABŞ-da FLEX proqramı çərçivəsində oxumuşdu. Şəxsi təhsil təcrübələrinə əsaslanaraq, hər ikisi Azərbaycanda təlim təcrübəsi və eyni zamanda ABŞ-da istifadə olunan yüksək düşüncəyə əsaslanan fəal təlim strategiyaları haqqında çox məlumatlı idilər. Onlardan hətta biri yarım il Bakıdakı Özəl Türk məktəbində oxumuşdu. Tədqiqat üçün məlumat toplamanın ikinci əsas mənbəyi dövlət rəsmiləri, məktəb rəhbərləri, ibtidai və orta məktəb müəllimləri, beynəlxalq təşkilatlarda işləyənlər, yerli və beynəlxalq-qeyri-dövlət toşkilatlarımn üzvləri ilə aparılan müsahibələr idi. Əksər hallarda, bu müsahibələr yuxarıda qeyd etdiyim tərcüməçilərin köməyi ilə aparılırdı. Respondentlərin rolundan asılı olaraq, müsahibə suallan çox müxtəlif idi. Bəzi respondentlər iki və ya üç problemlə əlaqədar müsahibə edilirdilər. Bu məlumat-faktlar 13-22 sentyabr 1999-cu il və 22 oktyabr - 5 noyabr 1999-cu il tarixlərdə mənim Azərbaycana səfərlərim zamanı toplanmışdı.



Məlumatların toplanmasının üçüncü mənbəyi Bakida və Bakinin yaxınlığında seçilmiş məktəblərdə dərslərin müşahidəsi olmuşdu. Fəal öyrənmə, müəllim davranışına tənqidi münasibəti aşkara çıxaran anket-sorğu Alan Kroford vo Beynəlxalq Oxu Assosiasiyasının nümayəndəsi Samuel Matyud tərəfindən hazırlanmışdı. Hər iki tərcüməçi-müşahidəçi, toxminən, Bakıda və onun kənar rayonlarında 14 məktəbdə, 200 sinifdə müşahidələr aparmışdır. Müşahidələr ibtidai siniflərdə və orta məktəb proqramını əhatə edən bütün fənlər üzrə 1999-cu ilin otkyabr ayında aparılmışdı. Hər bir müşahidonin müddoti, tox-minon, 20 dəqiqə çəkmiş və hər sinif ancaq bir problem üçün müşahidə olunmuşdu. Müşahidə vaxtı çox az olsa da, müşahidə olunan siniflər böyük idi.

Müşahidə üçün tərtib olunmuş cədvəl 9 bölmədən ibarət olub, 1-3 qiymıəti ilə qiymətləndirilib (əlavəyə bax). Müşahidə suallarına aşağıdakılar daxil edilmişdi: fəal öyrənmədə və yüksək məntiqi düşüncədə müəllimin rolu; müəllimin məntiqi sualvermə qabiliyyəti; şagirdlərin cavablarına müəllimin reaksiyası; müəllimin şagirdlərə informasiya vermə mənbələrinin dərəcəsi, vaxtdan istifadə (müəllimin suallarına tələbələrin cavabvermə vaxtı); tələbələri şərti qruplara bölmə strategiyası, sinif danışıq nümunələri, sinif otağının rararhlığı; oxu qabiliyyətinin möhkəmləndirilməsi, yazılı tapşırıqların yerinə yetirilməsində analitik düşüncə qabiliyyətinin inkişaf etdirilməsi.

Tərcüməçilərə lazımi göstərişlər verilmişdi ki, müəyyən olunmuş məktəbdə yeddi müxtəlif sinifdə müşahidə aparsınlar. Eyni zamanda müşahidə üçün seçilmiş sinifləıdə dərs deyən müəllimlər müşahidə vərəqində qeyd olunan bütün tələblərə uyğun olmalıdırlar. Eyni vaxt ərzində todqiqatçı və 2 təcrüməçi müstəqil surətdə 7 müxtəlif dərsi müşahidə edirdilər, müşahidə zamanı bir-birləri ilə danışmırdılar. Hər dərsin sonunda tərcüməçilər tədqiqatçı ilə öz müşahidələrini müzakirə edirdilər. Üçüncü dərsdən sonra hər üç müşahidəçinin qiymətlərində müəyyən bir uyğunluq aşkar olundu. Bu da ondan ibarət idi ki, anketin hər bir bəndinin qiymətləndirilməsi, demək olar, eyni idi. Bu əminliyi bir daha yoxlamaq üçün əlavə olaraq dörd sinifdə də eyni zamanda müşahidə aparıldı. Sonra tərcüməçilər müstəqil olaraq növbəti ayda apardan müşahidələrin tarazlığını (balansını) qurdular.

### Tədqiqatın mövzu dairəsi

Bu tədqiqat işi 1 - XI sinif müəllimlərinin təkmilləşdirilməsini öyrənməklə kifayətlənir. Müəllim hazırlığı problemi bu tədqiqatın obyekti olmamışdı. Həmçinin Azərbaycanda təhsilin ümumi vəziyyətinin öyrənilməsi tədqiqatda nəzərdə tutulmamışdı. Tədqiqatın məqsədləri üçün, yeri gəldikcə, təhsilin bəzi sahələrinə müraciət etməli olmuşduq. Tədqiqat ancaq Azərbaycanda müəllimləri təkmilləşdirmə sisteminin vəziyyəti və təlim təcrübəsi problemlorinin bugünkü vəziyyətinə həsr olunmuşdu (son tədqiqat oktyabr 1999-cu ili əhatə edir).

Dərs proseslorinin birbaşa yoxlanması üçün Bakının özündo və Bakı xaricində 14 məktəbin I-XI siniflərində 199 müşahidə aparılmaqla kifayətlənilmişdir. Özəl Türk məktəblərində isə məktəb rəhbərləri və tələbələrlə ancaq müsahibələr aparılmışdır.

## AZƏRBAYCANDA TƏHSİLİN VƏZİYYƏTİ

### SSRİ dağıldıqdan sonrakı dövr

Təhsil islahatına dair ayrılmış kredit haqqında Dünya Bankının Layihəni Bəyənmə (Report No 18991-Az) sənədinə görə (1999) Azərbaycana "Keçmiş Sovet İttifaqından inkişaf etmiş tohsil miras qalmışdı və təhsilin bütün statistik göstəricilərinə görə Azərbaycan inkişaf etmiş ölkələr arasında orta yerlərdən birini, keçmiş Sovet respublikaları arasında isə qabaqcıl yerlərdən birini tutur". Onlar qeyd edir ki, Azərbaycan müstəqillik yolu ilə addnnladıqca təhsil sahəsində, o cümlədən müəllimləri təkmilləşdirmə və təlim sahəsində bəzi problemlərlə üzləşir. Bunlar: 1) plan-proqramların uyğunsuzluğu;
2) təkmilləşdirmə məsələləri ilə məşğul olan institutların problemləri;
3) büdcə mənbələrinin azalması; 4) məhdıid büdcə mənbələrindən səmərəsiz istifadə; 5) binaların, dərsliklərin, köməkçi ləvazimat və materialların köhnəlməsi; 6) təhsil almaq üçün verilən imkanlarda olan ədalətsizlik.

Sovet dövründə ibtidai və orta məktəb plan-proqramları bütün şagirdlər üçün eyni idi. Son illərdə aparılan islahatlar tələbə marağına da ha çox hörmət ifadə edir və Azərbaycan təhsilində demokratiya amillərinin inkişaf etdiyini göstərir. Standart proqramlarda həftədə 37 saat məcburi iş nəzərdə tutulurdu ki, bu da şagirdləri çox yorurdu. Bu, V sinifdən başlayaraq (bu sinifdən şagirdlər müxtəlif fənləri seçməkdə nisbətən azaddırlar) dəyişir.
X sinifdə həftəlik 24 saat məcburi fənləri bütün şagirdlər götür-

məlidirlər və onlar həmçinin qarşıya qoyulan məqsəddən asılı olaraq 8 saat seçmə dərs götürürlər.

Azərbaycan Müəllimləri Təkmılləşdirmə İnstitutunun prorektoru Mircəfər Həsənova görə, proqramların məzmunu Sovet dövrü dağıldıqdan sonra, xüsusilə ədəbiyyat və tarix fənlərindən dəyişmişdir. O əlavə olaraq göstərir ki, proqramların tədris olunması metodu isə yenə əvvəlki kimidir. Təlim strategiyası az dəyişib.

Başqa əsas məsələ Azərbaycan məktəblərində tədrisin Azərbaycan və rus dillırində aparılmasıdır. Bakıda və digər böyük şəhərlərdə həm Azərbaycan, həm də rus dillərində proqramlar işlədilir, bəzən eyni bir məktəbdə hər iki dildə tədris aparıhr. Tədris Azərbaycan dilində olan Baki məktəblərində rus dili xarici dil kimi (ingilis, alman, fransiz və başqa dillər kimi) keçirilir. Əyalətlərdə isə tədris, adətən Azərbaycan dilində aparılır, rus və ingilis dilləri xarici dil kimi sagirdlərə öyrədilir. Belə ərazilərdə rus dilində tədris aparılan məktəblər çox azdir.

## Müəllimlərin sosial vəziyyəti

Şübhəsiz, Azərbaycanın təhsil problemlərindən ən böyüyu ınüəllimlər üçün lazımi sosial şəraitin olmamasıdır. Əksər müəllimlər ayda 50 ABŞ dollardan az maaş alırlar, halbuki 4 nəfərlik bir ailənin ayliq yasayışı üçün ən azı l70 dollar tələb olunur. Maaşlar tez-tez, bəzən aylarla gecikdirilir. Əksər müəllimlər az olan gəlirlərini artırmaq üçün əlavə işlərlə (məsələn. fərdi dərslər) məsğul olurlar və nəticədə, təxminən, ayda bütövlükdə 600-700 dollar qazanc əldə edə bilirlər. Bütün müəllimlərə eyni maaş verilir, ış təcrübəsinə, əlavə təkmilləsdirməyə görə və yüksək hazirlıqlarına görə heç bir fərqləndirmə yoxdur.

Bir cox müəllimlər dərsliklər olmadan işləməlidirlər, yaxud bütün şagirdlərə kitab/dərslik vermək mümkün olmur. Məktəblər lazımınca qızdırılmır, hətta bəzən istilik sistemi, ümümiyyətlə işləmir. Əksər məktəblərin maddi-texniki bazası cox pis vəziyyətdədir. Dünya Bankının ayırdığı qrantda bəzi təcrübi məktəblərin təmirini maliyyələşdirmək planlaşdırılıb.

Müəllimlərin acınacaqlı vəziyyəti (xüsusilə qaçqın uşaqlarına dərs deyənlər, yaxud özləri də qaçqın olanlar) Azərbaycanın hər yerində müşahidə olunan bir faktdır. Azərbaycanın Dağlıq Qarabağ ərazisinin və onunla sərhəd rayonların davam edən işğalı bu vəziyyəti daha da ağırlaşdırır. Bu məsələlər bütün müsahibədə iştirak edənlərin

hamısını narahat edirdi. Böyük qaçqınlar ordusu - uşaqlar, ailələr, məllimlər artıq, dağılmış olan iqtisadiyyat və təhsil müəssisələri üçün böyük problemlər yaradır. Bu, davam edən vəziyyətdə yaşayan sadə xalq üçün əlavə bir dərd olur.

## AZƏRBAYCANDA MÜƏLLİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ SİSTEMİ

### Müəllimlərin təkmilləşdirmə sisteminin hüquqi əsası

Azərbaycan Təhsil məcəlləsinə görə, hər beş ildən bir I-XI sinif müəllimləri 156 saat təkmilləşdirmə kursunda olmalıdır. Kursları Bakıdan kənarda Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu təşkil edir. Bakıda yaşayanlar üçün isə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu ilə bərabər, Bakı Müəllimləri Təkmilləsdirmə İnstitutu da bu işdə iştirak edir. Hər iki institut Təhsil Nazirliyinin bölmosidir. Təxminən, 20 faiz müəllim müxtəlif səbəblərdən (xəstəlik, hamiləlik, körpə uşağa görə, müharibəyə görə) təkmilləsdirmə kurslarından azad olunurlar. İndi hər il, təxminən, müəllimlərin 16 faizi təkmilləsdirmə kurslarına cəlb olunur. Bu, adətən, yay aylarında təşkil olunan bir aylıq kurslardır. Bu cür kurslar həftədə bir dəfə olmaqla oktyabrdan maya qədər də təşkil oluna bilər. Əlavə kürslar kimi, xüsusi fənlər üzrə kurslar təşkil olunur. Bu cür kurslar gündə 6 saat olmaqla üc günlük, altı günlük və səkkiz günlük müddəti əhatə edə bilər.

Təkmüləşdirmə kursları üçün plan proqramların seçilməsi Azərbaycan Elmi-Tədqiqat Pedaqogika institutu və təhsil problemləri ilə məşğul olan Metodiki Mərkəz tərəfındən, yerlərə göndərilmiş sorğulara cavab əsasında və eləcə də İnstitutun öz müəllimləri tərəfındən işlənib hazırlanmış proqramlar əsasında olur. Bundan başqa, kurslarda iştirak edənlərin təklif və rəyləri də prəqramların seçilməsində nəzərə alınır.

### Müəllimlərin təkmilləşdirilməsi işini təşkil edənlər

Azərbaycanda müəllimlərin təkmilləşdirilməsi işi ilə iki təşkilat məşğul olur. Bunlar Azərbaycan Müəllimləri Təkmilləsdirmə institutu və Baki Müəllimləri Təkmilləsdirmə İnstitutudur. Ali təhsil müəssisələri, beynəlxalq təşkilatlar və qeyri-dövlət təşkilatlarının da bu işdə müəyyən əməyi vardir. Masters B. və başqalarının (1999) qeyd et-

diyi kimi, bu institutlar təhsil işçilərinin peşə ustalıqlarının artırılma və yenidən təkmilləşdirilməsi işinə xidmət edir. Mastersin tədqiqatında 1-ci instituta Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləsdirmə İnstitutu kimi və 2-ci instituta Bakı Şəhər Pedaqoji İşçilərin Təkmilləşdirilməsi institutu kimi baxılmışdı.

Təhsil naziri M. Mərdanov söhbət zamanı bildirdi ki, əvvəllər təkmilləşdirmə institutları öz öhdılərinə düşən işi lazımınca görı bilmirdilər və onların işi formal xarakter daşıyırdı. Masters və onun кolleqalarının işində (1999) nazirin sözlərinin təsdiqi olaraq bir çox məsələlər: institutda işləyənlərin çox yaşlı olmaları, maaşların çox az olması, yeni təlim metodları haqqında müəllimlərin az məlumatlı olması və s. qeyd olunur. Nazir ümidvar olduğunu bildirdi ki, bu tədqiqat işi həmin institutların işinin səmərəliliyini artırmaqdan ötrü Dünya Bankının islahata ayırdığı qrant üçün yaxşı məumat mənbəyi olacaq.

## Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutu

Azərbaycan Müəllimləri Təkmilləsdirmə İnstitutunun rektoru dr. Məmmədhənifə Musayevə və həmin institutun prorektoru Mircəfər Həsənova görə, onların vəzifəsi Azərbaycan rayonlarında məktəb, institut və kollec müəllimləri və rəhbər işçiləri üçün, eləcə də Naxçıvan Muxtar Respublikasında tıkmilləşdirmə kursları təşkil etməkdir. Gəncədə, Lənkəranda, Şəkidə və Naxçıvanda ərazi mərkəzləri fəaliyyət göstərir. Onlara görə, təkmilləsdirmə kursları, təxminən, 80 faiz rayonlarda təşkil olunur, bu kurslarda onlar hər il 5000 müəllimə xidmət edirlər.

SSRİ zamanı müəllimlər rayonlardan Bakıya çağırılardılar və kurslar zamanı yaşamaq üçün yer, nəqliyyat və yeməklə təmin olunardılar. İndi bunu etmək mümkün deyil, büdcə vəsaiti buna imkan vermir.

İnstitut əməkdaşları rayonlara ezam olunur və fəaliyyət göstərən beş mərkəzin nümayəndələri lazımı göstərişlər və oriyentasiya üçü Bakıya dəvət olunurlar. Ərazi mərkəzləri təkmilləsdirmə kurslarını) mərkəzin özündə ya da məktəblərdə təşkil edirlər. Qarabağda olan daha bir mərkəz isə həmin ərazilər işğal olunduğu üçün fəaliyyət göstərmir. Hər bir rayonda müəllimlərin təkmilləşdirilməsinə olan ehtiyacı müəyyən etmək üçün yerli təhsil orqanlarına sorğu-məlumat vərəqləri göndərilir. Təhsil şöbələri hansı sahələr üzrə necə müəllimi təkmilləşməyə ehtiyacı olduğu haqqında məlumat verir. Bundan başqa

Müəllimləri Təkmilləşdirmə institutu öz ixtisaslarını dəyişən və məktəb idarəçiliyində işləyənlər üçün də təkmiləşdirmə kurslan təşkil cdir.

Təkmilləsdirmə üçün nəzərdə tutulan 156 saatdan əlavə, İnstitut müxtəlif mövzularda üç günlük, altı günlük və on səkkiz günlük kurslar da təşkil edir. Hər il məktəblərdə genişləndirilmiş cədvəl üzrə kurslar da təklif olunur. Masters və onun həmkarlarının fikrincə, (1999) təşkil olunmuş kursların çoxu, artıq, zamanla ayaqlaşmır.

Azərbaycan Müəllimləri Təkmilləsdirmə İnstitutunun müəllim-professor heyəti doqquz departamentdə cəmləşmişdir. Müəllimlərin bəziləri Elmlər Akademiyasındandır, bəziləri professor və elmi işçidirlər. Əksəriyyətinin ən azı 10 illik dərs demək təcrübəsi var. Müəllimlərin, təxminən, 60-nın elmlər doktoru və ya uyğun elmi dərəcəsi var. Bəziləri təkmilləşdirmə institutundan başqa, hal-hazırda tədris müəssisələrində də işləyirlər. Müəllimlər arasında həm təcrübi dərs deyənlər, həm də nəzəri problemlərlə məşğul olanlar var. Bəziləri Türkiyədə, İsraildə və ABŞ-da təcrübə keçmişlər. Az bir qisim isə Açıq Comiyyət institutunun (Soros) təşkil etdiyi kursların iştirakçıları olmuşlar.

Hər təkmilləşdirmə kurslarının axırında müəllimlər yeni məzmunda test verirlər. Onlar həmçinin kursların səmərəliliyini qiymətləndirmək üçün təşkil olunmuş sorğu-suala yazılı cavablar verməlidirlər və kursları təkmilləşdirmək üçün təkliflərini verə bilərlər. Müəllimlərlə aparılan sorğu göstərdi ki, bir çox məktəblordə bu qiymətləndirmə prosesi heç də müntəzəm olaraq təşkil edilmir.

Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda olduğu kimi, xüsusi tipli tədris müəssisələrində işləyən müəllimlər Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutunda da təkmilləşdirmə keçə bilər. Ancaq bu kurslar heç də xüsusi təlim kursları deyil, akademik fənlər üzrə təşkil olunur.

Azərbaycan Müəllimləri Təkmilləsdirmə institutunun rəhbərliyi tədqiqat işini aparmaq üçün bizə lazımı şərait yaratmışdı. Təkmilləsdirmə kurslarını müşahidə etmək mümkün deyildi, çünki bütün kurslar Bakıdan kənarda təşkil olunur. Mən ancaq bir dəfə bir dərsdə iştirak edə bildim. Bu da riyaziyyatdan yeni ixtisas almaq üçün müəllimlərin yenidən təkmilləşdirilməsinə həsr olunmuşdu. Müəllim çox cansıxıcı dərs aparırdı, əksərən mühazirə oxuyurdu, bəzi hallarda müəllim tələbələrin suallarına cavab verirdi. Hiss olunurdu ki, müəllimin riyaziy-

yatdan savadı çox yüksəkdi. Müəllim-tələbələr, demek olar ki, cox passiv formada oturmuşdular.

## Bakı Müəllimləri Təkmilləsdirmə institutu

İnstitutun rektoru İsa Məmmədovun və ingilis dili proqramlarının rəhbəri Rəfiqə Əliyevanın sözlərinə görə, onların işi Azərbaycanın paytaxtı Baki şəhərində işləyən müəllimlər üçün təkmilləsdirmə kursları təşkil etməkdir. İnstitut Bakı Şəhər Təhsil Şöbəsi ilə əlaqəli surətdə işləyir. 100 nəfərlik müəllim həyəti ilə (onlardan 50-i metodistdir) Bakının 11 rayonunda 351 məktəbdə işləyən müəllimlərə xidmt cdirlor.

Baki orta məktəb müəllimləri hər beş ildən bir təkmilləşdirmə keçirlər. Bununla belə, onlar təkmilləsdirmə kurslarından sonra maaşlarında bir əlavələr almırlar. Azərbaycanda müəllimlər gündə alti saat olmaqla 156 saat təkmilləşdirmə kurslarını bitirməlidirlər. Bu, iki cür həyata keçirilə bilər: 1) 8-9 ay ərzində həftədə bir dərs keçməklə; 2) bütün iyun ayi ərzində kurslarda iştirak etməklə. İnstitut geniş illik cədvəl nəşr cdib bütün məktəblərə göndərir. Bütün kurslar institutda təşkil olunur.

Bir neçə kiçik qrup halında olan işlər də təşkil olunur. Müəllimlər yeni cap olunmuş dərsliklərlə işləməyi öyronirlər. Bir neçə dərsin video çəkilişini müşahidə etmək də mümkündür.

Baki Müəllimləri Təkmilləşdirmə institutunun müəllimləri nümunəvi-təcrübəli müəllimlərdirlər. Onlar öz təcrübələrini öyrətməyə dəvət olunurlar. Nümunəvi mühazirələr oxunur. Xarici Dillər institutunun müəllimləri də bu işdə iştirak edirlər. İngilis dilinin tədrisində çoxlu nəzərə çarpan yeniliklər var. Bu sahədə çalışan müəllimlər daha tez-tez xaricdon golmiş miiollimlorin tosirino moruz qahrlar. Bir coxları ingilisdilli ölkələrdə səfərlərdə olublar. Ingilis dili müəllimləri arasında vacib yenilik ondan ibarətdir ki, onlar tez-tez fikir mübadiləsi edirlor. Bu zaman onlar bir-birlərinin dərslərinə gedir və bir-birlərin-dən öyrənirlər. Bu cür təcrübə ABŞ-da "peer coaching" (bərabər məşqçilik) adlanır. Bu, yeni müəllimlərin işə qobulunda çox səmərəli və geniş surətdə işlənən bir strategiyadır.

Baki Müəllimləri Təkmilləşdirmə institutu əvvəllər Bakının mərkəzi hissəsində yerləşirdi. Bir necə il bundan qabaq şəhərin mərkəzindən ucqar bir yerə köçürülüb. Bu da müəllimlər üçün müəyyən nəqliyyat problemləri yaradır. Kurslara getmək üçün onlar uzaq məsafəni qət etməlidirlər

bütün dərslər səhər saat 10-da başlamalıdır ki, müəllimlər vaxtında gəlib çata bilsinlər. Mənim iştirak etdiyim dərslərdə müəllimlər dərslər başlayandan sonra gəlirdilər. institut neçə vaxtdır ki, şəhərin mərkəzində yerləşən binaya qayıtmaq üçün cəhd göstərir.

Baki Müəllimləri Təkmillədirmə institutunun rəhbərliyi instituta ]səfərləri zamanı mənə çox köməklik göstərirdilər, hətta müxtəlif məqsədlər üçün təşkil olunmuş kurslarda iştirakıma icazo vermişdilor. Olduğum ilk dərs Azərbaycan məktəblərində rus dilini tədris edən müəllim ücün təşkil olunmuş kurs idi. Təxminən, 50 iştirakçı-müəllim dərsdə iştirak edirdi. Qonşu otaqlardan və bayırdan gələn səslər dərsə [mane olurdu. Dərs əsasən mühazirə formasında təşkil olunmuşdu, hərdən bir lövhədə yazılar olurdu, müəllim-iştirakçı arasında bəzi müzakirələr də baş verirdi. Dərsin mövzusu rus dili fonetikasında və Morfologiyasında doyişikliklər probleminə həsr olunmuşdu. Metodologiyaya çox az yer verilirdi. Müəllimlə müsahibə zamanı o qeyd etdi ki, tələbələr-iştirakçılar materialla tanış olur, onu başa düşür, yadda saxlayır və tətbiq edirlər - (Çox didaktik bir yanaşma.) Bu müəllim Azərbaycan Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının testlərindən istifadə edirdi və əvvəllər Azərbaycan Müəllimləri Təkmilləşdirmş İnstitutunda işləmişdi. O göstərdi ki, respublika öz müstəqilliyini qazanandan bəri təlim metodikasında çox az dəyişiklik baş verib. İştirak etdiyim başqa bir dərs rus dilli məktəblərdə işləyən ingilis dili müəllimləri üçün təşkil olunmuşdu. Dərsdə on müəllim-iştirakçı vardı. Dərsin mövzusu "Təlim və tədrisin əsaslandırma aspektləri, qrammatikanın tədrisi, dərslər zamanı səmərəli təlimi necə verməli?" idi. Əsasən, mühazirə formasında qurulmuş bu dərs çoxlu suallarla müşayət olunurdu. Bu suallar sanki təkrarı xatırladır və çox təsviri xarakter daşıyırdı. Tələbələr mühazirəçinin əvvəl söylədiyini təkrarlayır və onları başqa sahələrlə əlaqələndirirdi. Sonra müəllim tələbələrə dramatik fəaliyyət haqqında danışdı. Axırda tədrisə aid bir neçə göstəriş verildi. Bu müəllim də Azərbaycan Xarici Dillər institutunun müəllimi idi. Onun ingilis dili mükəmməl idi.

Daha bir dərs 18 nəfər ibtidai məktəb müəllimi üçün idi. Yenə də dərsdemə modeli mühazirə idi. Hərdənbir yerdən bəzi suallar verilirdi. Mühazirəçi müəllimdə mühazirənin tam mətni vardı, lakin bunlar tələbələrə verilməmişdi. Ona görə də dinləyicilər yazmağa məcbur idilər. Mühazirənin məzmunu çox aşağı səviyyədə idi. Sonra da bizə dedilər ki, dərs üçün mövzunu tələbələr-dinləyicilər seçmə-

mışlər.

Növbəti müşahidə etdiyimiz dərs Azərbaycan dili məktəblərində dərs deyən riyaziyyat müəllimləri üçün idi. Dərsin mövzusu funksiyalar haqqında idi. Müəllimin riyazi hazırlığı yüksək idi. Bu, müəllimlərin öz şagirdlərinə dedikləri dərsin təkrarı idi. Mühazirəçi müəllim söhbət zamanı o belə bir fikri vurğuladı ki, tələbələrə-dinləyicilərə müstəqil düşünmək vərdişləri aşılamalıyıq ki, lazımı nəticələr əldə edok. Əslində onun özünün söylədikləri dediyi dərslə uyğun gəlmirdi.

1999-cu ildən başlayaraq Baki Müəllimləri Təkmilləsdirmə institutu ikinci ixtisasa yiyələnmək istəyənlər üçün təkmilləsdirmə kursları təşkil edir. Bu kurslar qaçqın müəllimlər və məktəbin təqdimatı ilə gələnlər üçün pulsuzdur. Qalan müəllimlər təkmilləsdirmə kursları üçün pul verməlidirlər.

Xüsusi tipli məktəb müəllimləri də təkmilləsdirmə kurslarını Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda keçirlər. Bununla belə, onlara təklif olunan kurslar xüsusi tipli məktəb kursları deyil, akademik kurslardır. Xüsusi tipli təhsil (xəstə, əlil uşaqlar üçün) müəllim tərəfindən xəstə uşaqların yaşadığı evlərə getməklə aparılır. Bakının özündə və Bakıdan kənarda çox ağır xəstəliyi olan uşaqlar üçün bir neçə belə məktəb var. Azərbaycan Dövlət Pedaqoji Universitetin xüsusi tipli məktəblər üçün kadr hazırlanır. Amma hazırlanan kadr əsasən nitq terapiyası sahəsi üzrədir.

Xüsusi tipli təlim çox təcrübəli, xüsusilə ixtisası həkim olanlar rəfindən həyata keçirilir. Əvvəllər xüsusi tipli təlim üçün Moskva mərkəz hesab olunurdu. Rektor bildirdi ki, bu sahəni (xəstə uşaqların təlimi) inkişaf etdirmək üçün kənardan müvafıq kömək lazımdır.

## Azərbaycan Xarici Dillər Institutu

Azərbaycan Xarici Dillər institutunun prorektoru Səməd Seyidovla müsahibə zamani bizə institutun iki fakültəsi haqqında danışdı. Onlardan biri orta məktəb üçün xarici dil (ingilis, fransız, alman, ispan Koreya) müəllimləri hazırlayır, o birisi isə tərcüməçi (yazılı və şifa kadrlar hazırlayır. İnstitutda linqvistika, ədəbiyyat, tədris metodik və tərcümə ixtisaslarından magistr dərəcəsi verilir. İnstitut müəllimləri özləri də hər beş ildən bir təkmilləsdirmə kurslarında olmalıdır Eyni zamanda institutun müəllimlərinin çoxusu müəllimləri təkmilləşdirmə kurslarında xarici dil tədrisi üzrə dərslər deyirlər.

## Naxçıvanda vəziyyət

Naxçıvan Azərbaycanın Muxtar Respublikasıdır. Naxçıvanla Azərbaycanı ermənilərin işğal etdiyi Dağlıq Qarabağ ərazisi ayırır. Muxtar Respublikanın özünün Təhsil Nazirliyi var, əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin göstərişi ilə işləyir. Eyni zaınanda indiki təcridolunma şəraiti bu müstəqilliyi daha da artırıb. Oraya etdiyimiz səfər zamanı Muxtar Respublikanın Təhsil Naziri qeyd etdi ki, müəllimlərin təkmilləşdirilməsi Naxçıvan Pedaqoji Pesə institutu tərəfindən həyata keçirilir. Bu, Baki müəllimləri təkmilləşdirmə institutuna nisbətən müstəqil institutdur. Bununla belə, təkmilləşdirilmiş plan-proqramları Naxçıvan Təhsil Nazirliyindən alırlar.

Naxçıvandakı təkmilləşdirmə institutu 9 №-li məktəbin bazasında yaradılıb. İnstitutun direktoru İsmayıl Quliyevdir. 30 mütəxəssis və 10 xidməti işçi var. Hər il Bakıdan 1 və ya 2 mütəxəssis dərs demək üçün dəvət olunur. İnstitut direktoru Naxçıvan Təhsil Nazirinə hesabat verir. Burada 144 saatlıq aylıq təkmilləşdirmə kursları təşkil olunur. Spesifik mövzular üzrə mini-kurslar təşkil olunur. İnstitutun müəllimləri dərslər təşkil edir və plan-proqramların hazırlanmasına kömoklik göstərirlər. Türk dövləti instituta müəyyən yardım göstərib. ABŞ və Fransa səfırlikləri, adətən, xarici dil təliminin təşkili problemlərinin həllinə yardım edirlər. İndi ən böyük bəla Azərbaycan Respublikası ilə Naxçıvanın təcrid olunmasıdır. Direktor dedi ki, Qərbin köməyi ilə əvvəlki illərin çarizm/marksizm-leninizm ideyalarından xilas olmaq mümkündiir.

İnstitutun müəllimlərinin biri ilə müsahibə zamani o dedi ki, bir çox müllimlər nəqliyyat və yaşayış çətinliklərinə görə kurslarda iştirak edə bilmirlər. Bu səbəbdən də hər bir müəllimin beş ildən bir təkmilləsdirmə kursunu keçməsi Muxtar Respublikada mümkün olmur.

## Baki Şəhər Təhsil Şöbəsi

Baki Şəhər Təhsil Şöbısinin müdiri Asif Cahangirovun dediyino lörə, şöbə 295 orta məktəbə, 2 yetimlər evinə, 4 əqli cəhətdən qüsurlu uşaqlar üçün məktəbə, 321 uşaq baxçasına və 50 musiqi və idman məktəbinə nəzarət edir. Şöbə həmçinin istedadlı və qabiliyyətli uşaqlara psixoloji xidmət göstərir. Bütün bu tədris müəssisələrində 350.000 şagird oxuyur və 37000 müəllim onların təlim-tərbiyəsi ilə məşğul olur. O, məktəblə cəmiyyətin yaxın əlaqəsini, istər cəmiyyət, istərsə də məktəbin demokratiyaya doğru inkişafda bir-birinə örnək

olduğunu qeyd etdi. Sonra Cahangirov onu da əlavə etdi ki, bu cür inkişaf təhsilin mərkozində ancaq uşağın durduğu, təhsildə şagirdlərin bərabər hüquqlu fərdlər kimi yetişməsinə xidmət edən bir sistemin inkişaf etdirilməsi haqqında Təhsil Nazirliyinin düzgün siyasətini etdirir.

Keçən il Baki məktəbləri üçün "Uşaqların hüquqları ili" kimi qeyd olunub. Bu il isə "Yeni pedaqoji düşüncənin inkişafı və təhsilin huma nistləşdirilməsi ili" elan olunub. Bu, özündə yeddi əsas müddəanı I ləşdirir:

1. Uşaqların özlərinin dünyası və özlərinin düşüncə forması var;
2. Təhsil uşaqların bu maraqlarına xidmət etməlidir;
3. Təhsil uşaqların bu günü və gələcəyinə xidmət etməlidir;
4. Təhsilin mərkəzində uşaqların hüquqları durmalıdır;
5. Məktəblər şagirdlərin intellektual inkişafına xidmət etməlidir (Sovet təhsil sistemində isə yadda saxlama və əzbərləməyə daha çox fikirverilirdi);
6. Uşaqlarda müstəqil düşüncə qabiliyyəti inkişaf etdirilməlidir;
7. Sadalanan altı prinsipin həyata keçirilməsi müasir, qarşılıqlı əlaqədə olan təlim metodlarına əsaslanmalıdır.

Baki Təhsil Şöbəsi müəllim əməyinin qiymətləndirilməsinə dair bir çox tədbirlərin təşkil olunmasına sponsorluq edir. Hər il "İlin müəllimi" devizi ilə müsabiqə keçirilir. Qalibi müəyyənləşdirmək üçün onların dərslərinin video çəkilişi nümayiş etdirilir vo qaliblərə 250 ABŞ dollar! miikafat verilir. Bundan başqa "2000-ci ilin məktəb "Yeni təlim metodları" və digər adda müsabiqələr də təşkil olunur. Yeni təlim metodlarına böyük ehtiyac olduğunu hamı başa düşür bunu əsaslandırmaq üçün də yarışların təşkili mühüm əhəmiyyət kəsb edir.

## AIi təhsil müəssisələri

Müəllim kadrları hazırlayan bir neçə ali təhsil müəssisələri fəaliyyət göstərir. Bunlara Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan Dövlət Xarici Dillər institutu və digər pedaqoji institutli aiddir. Onların müəllimlərin təkmilləşdirilməsində rolu çox məhduddur. Eyni zamanda onlardan bəziləri magistr, doktor və buna uyğun dərəcələr almaq üçün proqramlar təklif edirlər. Bu təklif olunan proqramlar müəllimləri tokmilləşdirmə təhsili tələblərinə uyğun qəlmir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Bəhlul İsfən-

diyar oğlu AğayevlƏ söhbət zamanı o, işlədiyi Universiteti Azərbaycanda müəllim kadrları hazırlayan ən böyük və ən yaxşı universitet adlandırdı. 1921-ci ildən bəri, xarici dillər müstəsna olmaqla, bu universitet ibtidai və orta məktəblər üçün bütün sahələr üzrə kadr hazırlayıb. Xarici dillər üzrə müəllim kadrları Azərbaycan Dövlət Dillər İnstitutunda hazırlanır. Pedaqoji Universitet müəllimlərin təkmilləşdirilməsi ilə məşğul olan yuxarıda göstərdiyimiz iki institutla sıx əlaqə saxlayırlar. Öz ixtisasları üzrə daha geniş bilik əldə etmək istəyənlər üçün magistr proqramları və doktorluq (və yaxud uyğun) proqramlar təklif olunur. Azərbaycanda ibtidai və orta məktəblor üçün miiollim hazırlayan başqa pedaqoji institutlar da var. Rektorla söhbət zamanı o həmçinin qeyd etdi ki, onun rəhbərlik etdiyi institut bir çox proqram və planların hazırlanması üçün yaxşı baza hesab olunur, müəllimlərin tükmilləşdirilməsi işi üçün onlara icazə verilmir. Universitetin kadrları heç vaxt təkmilləsdirmə kurslarında dərs demək üçiin cəlb olunmurlar. Bununla belə bəzi müəllimlər məktəblərdə də dərs deyirlər.

## "Azərbaycan müəllimi"

"Azərbaycan müəllimi" Təhsil Nazirliyinin sponsorluğu ilə müəllimlər üçün buraxilan qəzetdir. Hor məktəb həftədə qəzetin bir nüsxəsini ahr, qəzetə fərdi abunə də yazılmaq olar. Abuno qiyməti çox bahadir və müəllimlərin gəliri fərdi abunə üçün onlara imkan vermir. Müəllimlərin biri dedi ki, qəzetə illik abunə haqqi onlarin iki ayhq maaşına bərabərdir.

## Başqa beynəlxalq təşkilatlar və kompaniyalar

Rəsul Bağırova görə, Dünya Bankı təhsil islahatı proqramına 1998-ci ilin oktyabrında başlayıb. Birinci ildə I və V siniflərdə, ikinci ildə II və VI siniflərdə, üçüncü ildə III və VII siniflərdə islahatlar həyata keçirmək planlaşdırılıb. Layihədə qarşıya qoyulan iki əsas məsələ plan-proqramların işlənib hazırlanması və müəllimlərin təkmilləşdirilməsi məsələləridir. Eyni zamanda dərsliklərin işlənməsi, yardımçı tədris materiallarının tədris ləvazimatlarının alınmasıda nəzərdə tutulur. Layihə qrupu Tədris Nazirliyinin nəzdində fəaliyyət göstərsə də ayrıca, müstəqil qurumdur. Layihə qrupunun qarşılaşdığı ən çətin problem Azərbaycan təhsil işçilərinin yeni təlim metodları ilə tanış olmamalarıdır. Qrupun məlumatına görə, müəllimləri təkmilləsdirmə, metodoloji və tədqiqat mərkəzləri kimi təlim strukturlarının yeniləşdi-

rilməsinə böyük ehtiyac var. Avropa Liseyinin müəllimi, həmçinin Dünya Bankı və Təhsil Nazirliyinin yaxın əlaqələndiricisi Zülfıyyə Veyisova bizə dcdi ki, onun işlədiyi məktəbdə müəllimlər yeni təlim metodlarını həvəslə öyrənməyə başlayıblar. Biz öz müşahidələrimiz zamanı bunun bir daha şahidi olduq.

Hal-hazırda Dünya Bankının islahat qrupu Azərbaycanın beş rayonunda iyirmi pilot (seçmə) məktəb ilə işləyir. Bakıda, Gəncədə, Lənkəranda, Naxçıvanda və Sumqayıtda (burada kimya zavodları uşaqların doğulması və sağlamlığina çox böyük ziyan vurmuşdur) məlumat toplayan mərkəzlər yaradılıb. Naxçıvanda olarkən belə məktəblərdən birinə baş çəkdik. Məktəbin direktoru bizə bu islahat proqramı nəticəsində məktəbin necə dəyiçəcəyini, müasir tələblərə necə cavab verəcəyini söylədi. Açıq Cəmiyyət İnstitutu (Soros) və UNISLEF də göstərilən iyirmi məktəbdə yeniləşmə aparmaq niyyətindədir. 1995-ci ildən UNICEF 150000-dən çox qaçqın uşaqlara çadır düşərgələrində təşkil olunan tədris işində fəal iştirak edib. Təhsil üzrə təlimatçı Mətanət Rəhimovanın fıkrincə, onların proqramı uşaqların inkişafının sağlamlıq prinsiplərini və bu sahədə onların valideynlərinin maarifləndirilməsini əhatə edir. Onlar nıüəllimlər üçün təkmilləşdirmə kursları, məktəb rəhbərləri üçün xüsusi kurslar təşkil edirlər. Dünya Bankı kimi UNICEF də Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq edir. Onların təşkil etdiyi kurslarda oxuyanlar üçün sertifikatlar verilmir.

UNICEF-in cari planına göro, əlli müəllimlə xüsusi kurslar təşkil olunacaq. Bu kurslarda təlim modellərinin təkmilləşdirilməsi strategiyası öyrədiləcək. Sonra 20 ən yaxşı iştirakcıya metodist-treyn sertifikatı veriləcok. Bunlar da öz növbələrində, 130-150 müəllimə təlim kursları keçəcəklər.

UNESCO-nun da Azərbaycanda az da olsa fəaliyyot proqramı var. Bu proqram BMT-nin 1990-cı ildə Coştiyendə təşkil olunmuş "Hamıya təhsil" devizi ilə keçirilən konfransın prinsiplərini əhatə edir. Onlar Azərbaycanda mövcud olan bütün nazirliklər ilə əlaqəli işləyirlər.

İngilis dilində çıxan "AzerNews" qəzetinin dərc etdiyi xəbərdə Fransa səfırliyinin fransız dili müəllimləri üçün təşkil etdiyi seminar haqqında danışılır. Bu seminarda yeni audio-video texniki təlim vasitələrindən istifadə qaydaları müəllimlərə öyrədilib. Britaniya Şurası ingilis dili müəllimləri üçün yeni təlim metodlarına dair geniş treyninq kursları təşkil edib.

## Qeyri-dövlət təşkilatları

Azərbaycanda müəllimlərin təkmilləşdirilməsi ilə məşğul olan bir neçə qeyri-dövlət təşkilatları var. Bu təşkilatların təşkil etdiyi kurslar heç də həmişə Təhsil Nazirliyinin təkmilləşdirmə haqqında tələbatlarını ödəmir.

Açıq Cəmiyyət İnstitutu (Soros) əməkdaşlarından Devid Stabbs və Elmina Kazımzadə ilə söhbət zamanı onlar bizə müəllimlərin təkmilləşdirilməsinə dair təşkil etdikləri bir neçə proqram haqqında məlumat verdilər. Onların Step-by-Step (addım-addım) proqramı ibtidai məktəb müəllimlərinin təkmilləşdirilməsinə yönəlib. Onlar yenicə daha bir proqramı həyata keçirməyə başlayıblar. Proqramın adı "Sərbəst düşüncə üçün oxu və yazı" adlanır. Bu proqramda iştirak edən Qərbdən gəlmiş könüllü təhsil işçiləri, təhsil professorları ibtidai məktəbdən tutmuş universitet səviyyəsinə qədər dərs deyən müəllimləri fəal öyrənmə və müstəqil düşüncə metodları ilə tanış edirlər. Onlar seminarlar təşkil edir və fəal öyrənmə və müstəqil düşünmə mo dellərini nümayiş etdirirlər. Hal-hazırda onların təşkil etdiyi kurslar Təhsil Nazirliyi tərəfindən qeydə alınmayıb.

Başqa bir qeyri-dövlət təşkilatı da bu yaxınlarda uşaqların hüquqları və bu barədə demokratik prinsiplər haqqında kurslar keçirməyə başlayıb. Yaşar Orucov və Əliağa Məmmədovun fikrincə, PROFILE-nin təşkil etdiyi bu kurslarda əsas məqsəd siyasi, iqtisadi təhlilə, səsverməyə dair məlumat verməkdir. Təhsil isə onların bütün fəaliyyətinin ancaq cüzi bir hissəsini təşkil edir. Bir layihədə onlar orta məktəb müəllimləri və şagirdləri arasında demokratiyanın möhkəmləndirilməsi prinsipləri üzərində işləyirlər. Onlar məlumat verirdi ki, ən böyük problem müəllimlərin özlərinin demokratik prinsipləri yaxşı başa düşməmələrindədir. Bunun da əsas səbəbi məktəblərin özlərinin də qeyri-demokratik əsasda təşkil olunmalarındadır.

ABŞ informasiya xidmətindən (USIS) 1998-ci ildə aldığı qrantla PROFILE "Tutu" Uşaq Nəşriyyatı ilə birlikdə iki günlük kurs təşkil etmiş və "Tutu"-nun nəşr etdiyi məlumat sorğu bülletenindən istifadə qaydalarını öyrətmişlər. Rəhman Bədəlov, Toğrul Cuvarlı və Hikmət Hüseynov bunu daha çox nəzəri məsələlərə həsr olunmuş iclas adlandırdılar və təklif etdilər ki, müxtəlif priyomlar və demokratik prinsipləri öz prezentasiyalarına əlavə etsələr yaxşı olardı. Dərs deyənlər universitetlərdən və Elmlər Akademiyasından gəlirlər. "Tutu" Uşaq Nəşriyyatı demokratik prinsiplər və insan hüquqları haqqında əlavə

kitablar çap etməyi planlaşdırıb.

Məni Təhsil Nazirliyinin tövsiyəsi ilə Bərdədə təşkil olunmuş kurslara dəvət .etmişdilər. Bu ərazi işğal zonasının qonşuluğunda yerləşir. Kurslarda qaçqın müəllimlər iştirak edirdilər. Müəllimlər çox həvəslə kurslara gəlirlər.Əgər kurslarda dərs deyənlər demokratik prinsiplərə əməl etsəydilər, nəzəriyyə ilə az "oynasaydılar", kursun səmərəliliyi daha çox olardı. Onlar, adətən, mühazirə söyləyirdilər. Dərsin sonuna yaxın müəyyən oyun elementlərindən də istifadə etdilər. Bakıda və rayonlarda müntəzəm kurslar təşkil etməzdən qabaq onlar dərs demək strategiyalarına yenidən nəzər salmaq niyyətindədirlər. Hal-hazırda onların təşkil etdiyi treyninq Təhsil Nazirliyi tərəfından qeydə alınmır və bu da Təhsil Nazirliyi ilə əməkdaşlığı çətinləşdirir. "Relief International" təşkilatının Azərbaycan üzrə rəhbəri xanım Reyçel Rozental da kursda iştirak edirdi və bu söylənilən fıkrin doğru olduğunu söylədi.

Azərbaycan Müstəqil Müəllimlər İttifaqının üzvü Məlahət Mürşüdlü ilə söhbət zamanı o qeyd etdi ki, bu təşkilat qeyri-dövlət təşkilatıdır. Onun əsas məqsədi təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi və müəllimlərin hüquqlarının qorunmasıdır. ISAR-ın (qeyri-dövlət təşkilatlarının yaranmasına yardım edən təşkilat) və Açıq Cəmiyyət İnstitutunun (Soros) köməyi ilə onlar "Təhsildən sonra təhsil" adlı broşüralar, kitabçalar nəşr etdiriblər. Onlar "qrup halında iş", müzakirə və seminar xarakterli təkmilləşdirmə kursları keçirmişlər. Qərb universitetləri və səfirliklərdən olan mütəxəssislər bu kurslarda dərs demişlər. Kursların iştirakçıları öz iş yerlərinə qayıtdıqdan sonra həmkarlarına məsləhət və köməklik göstərmişlər. Keçən iki il ərzində 300 nəfər bu kurslarda iştirak etmişdir. Əgər ehtiyac olarsa, onlar yeni işə başlayan müəllimlərə hamilik edir və onları müşahidə aparmaq üçün öz dərsələrinə dəvət edirlər. Təhsil Nazirliyi ilə Azərbaycan Müstəqil Müəllimlər İttifaqının yaxşı əlaqəsi var. Bununla belə, onların təşkil etdiyi kurslar da Təhsil Nazirliyi tərəfindən qeydə alınmır.

Müəllimlərin hazırlığını artıran kursları təşkil etmək üçün bir neçə qruplar da fəaliyyət göstərir. "Sivil təhsil" adlı kurslar "For the Save of Civil Society" adlı qrup tərəfindən keçirilir. Norveç Qaçqınlar Şurasının insan hüquqları haqqında yerli müəllimlərə kurslar təşkil etmək layihəsi var. Bu mövzu barədə onlar kitab nəşr etdirmişlər. C. Açive

ment Dövlət İqtisad İnstitutu iqtisad müəllimləri üçün müəyyən kurslar təşkil edir. Bu kurslarda da sertifikatlar verilmir.

## MÜƏLLİMLƏRİN TƏKMİLLƏŞDİRMƏ TƏHSİLİNİN SƏMƏRƏLİLİYİ

Bu tədqiqatın bir məqsədi kimi, mən müxtəlif təkmilləşdirmə kusları keçmiş müəllimlərlə qrup halında müsahibə apara bilmişdim. Müsahibələr zamanı bəzən direktorlar da iştirak edirdilər. Fərdi surətdə də müsahibələr aparılmışdı.

***Bakl, 27 N-li məktəb***

27 N-li məktəb Bakının mərkəzində yerləşir. Məktəb ingilis təmayüllüdür. I-Xl siniflər üçün tam tədris fənləri keçirilir. Müsahibə apardığım 16 müəllimdən yeddisi keçən il Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda kurslarda olmuşlar. Qalanların beşi iki il əvvəl, biri 3 il əvvəl, ikisi isə 5 il əvvəl təkmilləşdirmədə olmuşlar. Kurslarda olanların əksəriyyəti ingilis dili müəllimləri idilər. Ancaq riyaziyat, biologiya, fızika, rus ədəbiyyatı, Azərbaycan ədəbiyyatı və tarix müəllimləri də kurslarda olmuşdular. Onların qeyd etdiklərinə görə, kurslarda istifadə olunan materiallar əsasən, Türkiyədən, Almaniyadan və Avstriyadan gətirilmiş tədris vəsaitləri olub. Kurslarda yeni təlim metodları haqqında fıkir mübadiləsi, eləcə də kurslarda iştirak edən müəllimlərin nümunə fərqləri çox əhəmiyyətli olmuşdur. Onlar təkmilləşdirməni daha da inkişaf etdirmək üçün bəzi tövsiyələr söylədilər: yaxşı hazırlıqlı müəllim-metodist, təkmilləşdirmə üçün müəllimlərin daha çox ehtiyac hiss etdiyi problemlər, təkmilləşdirmə zamanı təcrübi dərslərə daha çox əhəmiyyət vermək, nəzəriyyəyə az fıkir vermək, təcrübədən keçirilən metodların uşaqlara nümayişi, xarici dil müəllimlərinin daha çox dilin öz daşıyıcıları ilə ünsiyyət yaratmaq imkanı, Qərb metodologiyasının daha çox tətbiqi.

Müəllimlərin bəziləri dedilər ki, onlann kursların təşkilini qiymətləndirmək imkanı olmuşdur. Başqaları üçün isə bu imkan olmamışdır. Onlardan fəal öyrənməyə əsaslanan Qərb metodları haqqında soruşduqda dedilər ki, bu sahədə bəzi müəllim və tələbələr bu dəyişıkliklə ayaqlaşa bilmirlər. Sinifdə nizam-intizamın möhkəmləndirilməsinə böyük ehtiyac var. Müəllimlər həmçinin qeyd etdilər ki, "Azərbaycan müəllimi" qəzetini oxuyurlar. Eyni mövzu barədə Rusi-

yada çap olunan qəzetlər daha məzmunlu idi, bununla bərabər, həmin qəzetlərdə ancaq Rusiyaya aid materiallarin verilməsini yaxşı qiymətləndirmədilər.

***Baki, 146 N-li məktəb***

146 N-li məktəb Bakının mərkəzi hissəsində yerləşir, ingilis təmayüllüdür. Bu məktəbdə sosial fənlərin də ingilis dilində öyrədilməsi sahəsində yeni metod tətbiq olunur.

Təkmilləşdirmə kursları haqqında onlarla söhbət edəndə bir qrup müəllim müsbət fikir söylədi. Onlar Amerika səfirinin xanımı ilə ingilis dili təlimi haqqInda təşkil olunan yığıncağı, Şotlandiyada təhsil almış azərbaycanlı müəllimlə olan görüşü və riyaziyyatdan çox güclü kursların təşkil olunmasını da maraqla danışdılar. Onlar həmçinin rus dili, coğrafıya, Azərbaycan tarixinin tədrisinə dair yeni metodların işlədilməsini öyrəndiklərini söylədilər. Əlavə olaraq, onlar təkmilləşdirmə kurslarının səmərəliliyini artırmağa böyük ehtiyac olduğunu söylədilər. Bunun üçün kompüter texnologiyasının tətbiqinin, dil tədrisi üçün kommunikativ strategiyanın (ənənəvi qrammatika-tərcümə metodunun yerinə) mənimsənilməsinin, ənənəvi Sovet metodlarının yerinə yaradıcı metodların işlədilməsinin zəruriliyindən danışdılar. 146 N-li məktəb gənc müəllimlərə kömək məqsədilə özlərinin xüsusi proqramlarını hazırlayıb. Gənc müəllimlər təcrübəsi çox olanların himayəsinə verilmişlər. Onların dərsləri mütəmadi olaraq müşahidə olunur. Öz növbəsində, bu məktəb Qərbdə yeni müəllimləri işə qəbul edərkən işlənən proqramların əsas cəhətlərindən istifadə edir.

***Bakı, 20 N-li məktəb:***

20 N-li məktəb Bakının mərkəzində yerləşən elita məktəbi adlanır. Məktəbin direktoru Dünya Bankında təhsil üzrə milli məsləhətçidir. 17 nəfər müəllimlə söhbət zamanı onlar Sovet təhsil sistemini yaxşı təşkil olunmuş təhsil sistemi kimi qiymətləndirdilər. O təhsil sisteminin müsbət xüsusiyyətlərinin olduğunu göstərdilər, eyni zamanda, ümumiyyətlə, səmərəli təhsil sistemi olmadığını da vurğuladılar. Bakı və Azərbaycan Təkmilləşdirmə İnstitutlarının təşkil etdikləri kursların köməyi olmur. Müəllimlərdən biri Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda dərs də deyib. Müsahibədə iştirak edənlər təkmilləşdirmənin hər beş ildən deyil, hər il olmasını arzuladılar. On-

lar yeni təlim metodlarının daha çox təcrübə əsasında öyrənilməsinin tərəfdarı olduğunu bildirdilər.

***Bakı, 7 N-li məktəb.***

27 N-li məktəb kimi, 7 N-li məktəb də Bakının mərkəzində yerləşir və ingilis dili təmayüllüdür. Müsahibə götürdüyümüz müəllimlər Azərbaycan dili və ədəbiyyatı, biologiya, ingilis dili və coğrafiya tədris edirdilər. Onlar göstərdilər ki, Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun müəllimləri peşəkarlıq cəhətdən müxtəlifdirlər. Onlar tədris etdikləri fənlər barədə yaxşı məlumatlı olsalar da, daha çox nəzəriyyəyə üstünlük verirdilər. Bu müəllimlərdən ikisi Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda dərs demişdir. Müəllimlər kurslar zamanı öyrəndikləri bəzi vərdişlər haqqında danışdılar. Yeni materiallardan necə istifadə etmək qaydaları, coğrafıya fənnindən problemlərin həlli, son dövr təhsil islahatlarına uyğun yeni metodların mənimsənilməsi və s. bunlara aiddir. Müəllimlər kompüter texnologiyasının todrisə tətbiqinin daha da gücləndirilməsini və başqa ölkələrin təlim metodlarından istifadəni tövsiyə etdilər.

***Şamaxı, 2 N-li məktəb:***

Bakıdan kənarda olan məktəblərin müəllimləri və direktorları ilə də müsahibələr təşkil etdik. Şamaxıdakı 2 N-1i məktəbin direktoru göstərdi ki, 20-25 nəfər müəllimin təkmilləşdirməyə ehtiyacı olanda o, Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutundan müəllim dəvət edir. Nadir hallarda müəllimi Bakıya təkmilləşdirmə kurslarına göndərirlər.

Axırda, əvvəllər Turk məktəblərindən birində oxumuş şagirdlərdən biri ilə və bu məktəbdə təhsil alan başqa bir şagirdlə söhbət etdim. Birinci şagird söylədi ki, məktəbdə cox güclü idarəçilik var və nizam-intizam çox yüksək idi. Məktəbdə mühazirə, qeyd götürmə və yadda saxlama ilə əlaqələndirilən transmissiya təlim modelindən istifadə edilir. Ev tapşırığı eyni mühazirə qeydlərinin dəfələrlə köçürülməsindən ibarətdir. Şagirdlərin müvəffəqiyyətinin səbəbi məktəbə qəbulun yaxşı təşkilində, ev tapşırıqlarının çox olmasında. yüksək səviyyəli dərsliklərdə və digər tədris ləvazimatlarındadır. O məktəbi 1996-cı ildə tərk edib.

Sonrakı şagird isə hal-hazırda başqa türk məktəbinə qəbul olub və çox müsbət təcrübəsi vardı. O da məktəbə qəbulun çox yaxşı təşkilini və ev tapşırıqlarının çox olmasını qeyd etdi. Məktəbdə sual-cavab və qrup-işləmə təlim metodlarından çox səmərəli istifadə olunur.

## MÜƏLLİMLƏRİN TƏKMİLLƏŞDİRMƏ KURSLARINA VƏ DƏRSLƏRİN TƏŞKİLİNƏ KÖMƏKLİK EDƏN DİGƏR TƏŞKİLATLAR

### Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutu

1931-ci ildə yaradılan Azərbaycan Elmi Tədqiqat Pedaqogika institutu təhsil və pedaqogika sahəsində elmi tədqiqatlar aparan müstəqil elmi təşkilatdır. İnstitutun direktoru Şəmistan Mikayılova görə, onların əsas məqsədi tədqiqat aparmaq, hər bir səviyyə üzrə keçirilən fənnin məzmununu müəyyən etmək və müəllimə kömək üçün həmin fənlər haqqında məlumat-sorğu kitabları hazırlamaqdır. Onlar hər iki

müəllimləri təkmilləşdirmə institutları ilə sıx əlaqə saxlayırlar, onlar üçün proqramlar hazırlayırlar. Həmin proqramlar təsdiq olunmaq üçün Təhsil Nazirliyinə göndərilir. Bu institutun bəzi müəllimləri həmçinin təkmilləşdirmə kurslarında dərs deyirlər. İnıstitutda aşağıdakı tədqiqat departamentləri var: ibtidai məktəb. məktəbəqədər təhsil, Azərbaycan dilinin tədrisi metodikası, ədəbbiyyat tədrisi metodikası, xarici dillərin tədrisi metodikası, rus dilinin tədrisi metodikası. milli azlıqların dillərinin tədrisi metodikası, fizika və riyaziyyatın tədrisi metodikası kimya və biologiya tədrisi mctodikası, tarix və cografiyanın tədrisi metodikasi, didaktika/psixologiya, insan inkişafı, pedaqogika və idarəetmə tarixi, əmək və pesə təhsili. təkmilləşmə və pesə təhsili, texmki yardım vasitələri və proqramlaşdırılmış təhsil. Onların əsas rolu elmi tədqiqatdır və institutun 55 nəfər işçisinin elmlər doktoru və buna uyğun elmi dərəcələri var.Elmi və Metodoloji mərkəzlə (keçmiş metodkabinet) əlaqə məsələsinə gəldikdə isə (aşağıda bu barədə danışılır) onlar qeyd edirlər ki. Bakıdakı bu mərkəz aparılan tədqiqatların nəticələrini müəllimlərə və məktəblərə göndərir. Həmin mərkəzin işçilərinin əksəriyyətinin elmlər doktoru və uyğun elmi adları yoxdur.Ş. Mikayılov göstərdi ki. həmin bu iki mərkəz arasında münasibət qənaətbəxş deyil.institutun ehtiyacları barədə soruşulanda Ş. Mikayılov qeyd etdi ki,. fənlərin inteqrasiya formasında tədris olunmasına və müəllimlərin fəal təlim metodlarına yiyələnmək üçün xaricdə təkmilləşmə keçmələrinə ehtiyac var. O həmçinin göstərdi ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası rüşvətxorluğu aradan qaldırmaq üçün mühüm addımlar atsa da. riyaziyyatdan və təbiət elmlərindən testlər çox çətin olur, daha çox "düşündürücü suallara" yer vermək lazımdır.

### Təhsil Problemləri üzrə Elmi və Metodiki Mərkəz

Mərkəzin direktoru Nəçəf Nəcəfovla müsahibə zamanı o göstərdi ki, bu mərkəz 1994-cü ildən başlayaraq təhsil planları-proqramları hazırlamış, bu proqramlar hər bir fənn üzrə ayrı-ayrı siniflər üçün lazımı dərs saatlarrını əhatə edir. Bu, Dünya Bankının 18991-Az (1999) saylı hesabatında da öz əksini tapıb. Sovet dövründə bu proqramlar Moskvadan göndərilərdi və heç bir dəyişiklik olmadan tətbiq olunmalı idi. Mərkəzin təlim metodları haqqında məsləhət və xidmət göstərmək üçün qanuni səlahiyyəti var. Mərkəzin kitabxanadan başqa. 8 departamenti var: metodlar, materiallar və

hüquqi sənədlər ixtisaslaşdırılmış orta məktəblər, ümumtəhsil məktəbləri, məktəbəqədər təhsil və hazırlıq, ali təhsil, ali təhsil hazırlığı, iki administrativ bölmə, idarəetmə və qiymətləndirmə, mäliyyə.

Mərkəzin işçiləri İnstitutun işçilərindən fərqlənir. Burada qrup halında işləyən 100 sinif müəllimi var. Onlar təkmilləşmə kurslarında dərs demək üçün tez-tez təkmilləşdirmə institutlarina dəvət alırlar.

Mərkəz indi Dünya Bankının məsləhəti və yardımı ilə 1999-cu il üçün təhsil planları hazırlayıb. Yeni plan əsasən, Böyük Britaniya. Çin. Polşa. Norveç; Fransa. ABŞ. Rumıniya, Yaponiya və digər 15 ölkənin təlim planlarına əsaslanaraq hazırlanıb. İlkin olaraq. 1, V və X siniflər üçün planlar işlənib. Birinci siniflər üçün yeni proqram və Dünya Bankının çap etdirdiyi kitab tədris üçün hazırdır. Mərkəz həmçinin plana uyğun olaraq fənn proqramları da hazırlayır.

Onların son işlərinin əsas hissəsi Azərbaycan və dünya tarixinin yeni variantını hazırlamaqdır. Bu da Sovet dövründən qalan kitabları əvəz edəcək. Həmçinin Azərbaycan dili. coğrafiya, riyaziyyatdan yeni materiallar hazırlayıblar. Biologiya kitablarında göslərilən bitki və heyvanlar Azərbaycan ərazisindən verilən misallardir. Fizika və astronomiya, Azərbaycan dili və ədəbiyyatı fənləri də Azərbaycan reallığını əks etdirir. Nəcəfovdan onun başçılıq etdiyi mərkəzlə Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutu arasında olan fərqi soruşduqda o göstərdi ki, Elmi Tədqiqat Pedaqogika İnstitutu proqramların məzmunu haqqında tədqiqat aparır. dünya təcrübəsinə uyğun gəlməyənləri müəyyənləşdirir və müxtəlif məqalələr çap etdirir. Sonra hazırlanmış sənədlər təhsil Nazirliyinə və Metodiki Mərkəzə göndərilir ki, təlim planları hazırlananda bir əsas kimi götürülsün. Mərkəz tədqiqatın nəticələrindən məktəblərdə həyata keçirilən metodoloji tövsiyələrin işlənib hazırlanmasinda istifadə edir. Elmi Tədqiqat Pedaqogika İnstitutunun bir əməkdaşı hər bir təzə təhsil planlarının hazırlanmasında iştirak edir. Bu iki təşkilat arasında qarşılıqlı əlaqəni əks etdirir.

Elmi Tədqiqat Pedaqogika İnstitutu və Metodiki Mərkəz arasında olan əməkdaşlığı göstərmək üçün dedi ki, İnstitut fizikadan tədris proqramında olan problemləri öyrənmək üçün tədqiqat apara və Metodiki Mərkəzin tədqiqat qrupu bunu təsdiqləyə bilər. Hazırlanmış məlumat və yaxud məqalə mütəxəssislər tərəfindən yoxlanmaq üçün Təhsil Nazirliyinə göndərilir. Mütəxəssislər universitetlərdən, Elmlər Akademiyasından və yaxud Xarici Di1lər İnstitutundan ola bilər. Təh-

sil Nazirliyi proqramı bəyəndikdən sonra yenidən Metodiki Mərkəzə çap olunmaq üçün göndərir. Sonra materiallar metodoloji tövsiyələrlə birlikdə müəllimlərə göndərilir. Bu tövsiyələr həmçinin təkmilləşmə ilə məşğul olan hər iki instituta da göndərilir. İnstitutun əməkdaşı metodoloji tövsiyələrin hazırlanmasında da iştirak edir. Metodiki Mərkəz bu işdə həmçinin uşaqlar üçün tanınmış sinif müəllimlərinin təcrübəsindən də istifadə edir.

Azərbaycanın Təhsil Naziri M.Mərdanovla söhbət zamanı o göstərdi ki, növbəti ildə Elmi Tədqiqat Pedaqogika İnstitutu və Metədiki Mərkəz birləşəcək. Bu, vaxtilə Moskvada həll olunan problemlərin burada həlli üçün məşhur alimləri, tədqiqatçıları və müəllimləri bir yerə toplayacaq, onların səyini birləşdirəcək.

Bakıdakı Avropa Liseyinin müəllimi Zülfiyyə Veyisova (o həmçinin Dünya Bankının və Təhsil Nazirliyinin əlaqələndiricisidir) əlavə etdi ki, institutlar üçün prinsipial məqsəd birgə əməkdaşlıq etmək və müəllimlərin arzuladığı yolla işləməkdir.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası l992-ci ildə yaradılıb. Bu, universitetlərə qəbul sahəsində rüşvətxorluğun qarşısını almaq üçün və təhsili deməkratikləşdirmək yolunda atılan ilk addım kimi qiymətləndirilmişdir. Sovet sistemindən qalan bir formada arzu və istəklər nəzərə alınmadan tələbələrin fərdi surətdə imtahan edilmələri idi. Yeni imtahan sistemi tələbələrə öz maraqlarına uyğun ixtisaslar üzrə imtahan verməyə şərait yaradır. Orta məktəbdə yenidən işlənib hazırlanmış plan-proqramlar ixtisaslaşmada seçmələr aparmağa imkan verir.

Komissiyanın sədr əvəzi Məleykə Abbaszadə ilə apardığımız iki müsahibə zamanı o göstərdi ki, 1992-ci ildə komissiya yaradılanda Türkiyə hökuməti bu strukturun inkişafına köməklik göstərdi. O, bu vəzifəyə 1994-cü ildə Azərbaycan Respublikası prezidentinin fərmanı ilə təyin olunub. Sonra Dövlət Testləşmə Komissiyasının təhlilini başa çatdırıb. O, belə qənaətə gəlib kı, tərtib olunmuş testlər istər elmi, istərsə də pedaqoji cəhətdən düzgün deyil. O vaxtlar müəllimlər və təhsil işçiləri testlərin tərtibi üçün böyük informasiya bankı yaradıblar. Bu proses bu gün də davam edir.

Testlərin yararlılıq və etibarlılığı öyrənilib, normalar müəyyənləşdirilib. Tərcüməçinin köməkliyi ilə əvvəlki imtahanlarda istifadə

edilən testləri nəzərdən keçirə bildim. Testlər çoxvariantlılıq əsasında a. b, c, d formasında tərtib olunub. Sadədən mürəkkəbə prinsipi gözlənilib, amma cox da düşündürücü xarakterdə verilməyib. Hər dörd səhvə görə bir düzgün cavab ləğv olunur, bununla da test strategiyasını qeyri-məhsuldar ediblər.

Əvvəlki illərdə mövcud olmuş rüşvətxorluğa görə, test sisteminin tətbiqi xalqda olan inamı inkişaf etdirmək üçün çox böyük əhəmiyyətə malikdir. Testlər tərtib olunan binalar çöx güclü qorunur və respublika prezidentinin mühafizə dəstəsinin nümayəndəsi testlər hazırlanan vaxtı mərkəzə göndərilir, imtahanlardan bir gün əvvəl bütün lazımı sənədlər hazır olur. Xalqda imtahanlara olan inamı daha da gücləndirmək üçün Test Komissiyası bütün imtahanların nəticələrini məktəblər, rayonlar üzrə (qaçqın uşaqlarıda nəzərə alınmaqla) təhlil edir və bunlar nəşr olunur.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədr əvəzi Elmlər Akademiyasından və universitetlərdən olan müxtəlif fənlər üzrə mütəxəssislərlə hər il testlərin nəticələri elan olunduqdan sonra muxtəlif fənn müəllimlərilə görüşlər təşkil edir. Mən biologiya və coğrafiya müəllimlərilə Bakıda təşkil olunmuş bir iclasda iştirak edə bildim. Müəllimlər öz tələbələrinin zəif və güclü cəhətləri haqqında məlumatlar topladılar və test nəticələrini daha da yaxşılaşdırmaq üçün bilgilər əldə etdilər. Komissiya sədri müəllimlərlə görüş zamanı dedi ki, Baki üzrə ən cox bal toplamış şagirdlər Avropa Liseyinin və Türkiyə məktəbinin şagirdləri olmuşlar. Onların builki nəticələri keçənilki nəticələrlə uyğun gəlir. Rusdilli orta məktəb şagirdlərinin göstərdiyi nəticələr azərbaycandilli orta məktəb şagirdlərinin nəticələrindən bir az yüksəkdir. Ümumiyyətlə, Bakıda oxuyan şagirdlərin nəticələri rayonlarda oxuyanların nəticələrindən yüksək olur. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası həmçinin testlərə hazırlıq məqsədilə müəyyən kurslar təşkil edir və sagirdlər üçün məlumat xarakterli jurnal buraxir.

Test prosesində kəsilmə ehtimalı cox yüksəkdir. Onuncu sinifdə imtahandan kəsilənlər 11-ci sinifdə təhsillərini davam etdirə bilmirlər və sonra universitetlərə qəbul edilmirlər. Universitetlərdə təhsil almayanlar hərbi xidmətə çağırılırlar. Universitet tələbələri təhsil müddətində hərbi xidmətdən azaddırlar. Ali təhsillilər il yarım əvəzinə bir illik hərbi xidmətə çağırılırlar. Bir müəllim miüqayisə üçün testlərdən 600-dən cox bal toplamış sagirdlərin (30 faiz şagird) nəticələrinin orta

məktəblərdə qiymətləndirmə sisteminə görə (1 (aşağı) - 5 (yüksək)); "4" qiymətinə uyğun gəldiyini göstərdi. Sonra o, balların obyektivliyı haqqında bəzi məsələlərə toxundu.

**NƏTİCƏ**

Arxiv materiallarından, müsahibələrdən təkmilləşdirmə kursları, ibtidai və orta məktəblərdə dərslərdə apardığımız müşahidələrdən asağıdakı nəticələri çıxarmaq olar:

## Müəllimləri təkmilləsdirmə

1. Azərbaycanda müəllimləri təkmilləşdirmə kursları, 2 institut tərəfindən aparılır: Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu və Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutu. Hər iki institutun müəllim heyəti tamamilə müxtəlifdir. Bakı Müəllimləri Təkmilləşdirmə institutunda işləyənlərin pesə hazırlığı, Azərbaycan Müəllimləri "Təkmilləşdirmə institutunda işləyənlərin isə tədris təcrübələri daha yüksəkdir. Hər iki institutun istifadə etdiyi strategiyalar çox oxşardır. Adətən. passiv şəkildə təşkil olunan formal mühazirələr daha çox işlədilir.
2. Hər iki institutda dərs deyən metodistlərin keyfiyyət tərkibi çox müxtəlifdir. Əksəriyyətinin işi qeyri-qənaətbəxşdir və dövrlə ayaqlaşmır.
3. Həm Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutu, həm də Bakı Müəllimləri "Təkmilləşdirmə institutu illik olaraq müxtəlif kurslar təşkil edirlər.
4. Həm Azərbaycan Müəllimləri Təkmillısdirmə, İnstitutunun. həm də Bakı Müəllimləri Təkmilləşdirmə Institutunun kiril əlifbasından latın əlifbasına keçməkdə ibtidai məktəb müəllimlərinə daha səmərəli köməklik göstərmələri müəllimləri razı salmışdır.
5. Hər iki institutun metodist müəllimlərinin tədris metodları yox köhnədir, keçmişdən qalmış metodlarla işləyirlər. Təkmilləşmə kursları zamanı onlar ancaq mühazirə metodundan istifadə edirlər.
6. Əksər təkmilləşdirmə kursları dərsin təşkili prosesindən daha çox məzmuna fikir verir. Riyaziyyatdan və təbiət elmlərindən müşahidə etdiyimiz dərslərin məzmunca səviyyəsi yüksək idi.
7. Hər iki institutun təşkil etdiyi təkmilləşdirmə kursları təcrübədən daha çox nəzəriyyəyə arxalanır. Müəllimlər təcrübəyə daha

çox fikir verilməsini, uşaqlarla daha çox əyani vəsaitlə işləmək strategiyasını öyrətməyə ehtiyac olduğunu söylədilər. Bir-birinin təcrübəsinin qarşəlıqlı öyrənilməsi də qeyd olundu.

8. Xəstə uşaqlarla işləyən müəllimlərin təkmilləşdirmə kurslarında həmin uşaqlara dərsdemə strategiyasından daha çox ayrı-ayrı fənlərin tədrisinə diqqət yetirirdilər. Bu sahədə keçmiş Sovet İttifaqından qalmış məktəblər daha çoxdur və kənardan heç bir yardım yoxdur. Nə Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutu, nə də Baki Müəllimləri Təkmilləşdirmə institutunun xəstə və əlil uşaqlarla işləyən müəllimlərin təkmilləşdirmə kurslarını təşki1 etmək üçün lazımi bazaları yoxdur və hər iki institut rektorları xaricdən köməyə daha çox ehtiyac olduğunu dedilər.
9. Rayonlarda yaşayan həm müəllim. həm də məktəb rəhbərlərinin fikrincə. müəllimləri təkmilləşdirmə təhsilinin və metodist müəllimlərin keyfiyyəti Bakıdakı kimi yüksək deyil, həmçinin Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutunda işləyən metodist-müəllimlərlə az görüşürlər. Əvəzində, təkmilləsdirmə kurslarında yerli müəllimlər dərs deyirlər (institutun razılığı ilə).
10 Müəllimlər tez-tez hələ görmədikləri dərsliklər. sorğu kitabları və digər vəsaitlər haqqında təkmilləşmə kursları keçməli olurlar.
ll. Çoxlu qeyri-dövlət təşkilatları müəllimlər üçün təkmilləşdirmə kursları təşkil edirlər. Həmin kursların bəziləri iştirakçılar tərəfindən yüsək qiymətləndirilir. Bu kurslar nə qeyri-dövlət təşkilatları arasında razılaşdırılır, nə də Təhsil Nazirliyi bu işi idarə edir. Müsahibələr nəticəsində belə aydın oldu ki. Təhsil Nazirliyi ancaq bu cür təkmilləşmə kurslarından birinə sertifikat vermişdir.
12. "Azərbaycan müəllimi" - bu müəllim qəzeti plan-proqramlarda olan dəyişikliklər haqqında, Təhsil Nazirliyində olan təzə yeniliklər barədə, müxtəlif tədris strategiyaları haqqında müəllimlərə məlumat vermək üçün böyük imkanlara malikdir. Amma heç də bütün müəllimlər həmin qəzeti ala bilmirlər.
13. Xarici ekspertlər Azərbaycanda təhsil islahatına öz töhfələrini verirlər, Azərbaycanın çox təhsil işçiləri ilə Türkiyəyə, Rusiyaya. ABŞ-a. Böyük Britaniyaya v ə digər ölkələrə gedib təcrübə keçmək imkanları olmuşdur. Bu təcrübənin daha da inkişaf etdirilməsinə böyük ehtiyac var.

## Dərslərin təşkili

14. Siniflərdə apardığımız sistematik müşahidələr əsasında belə qərara gəldik ki. Azərbaycanda dərs deyən müəllimlərin əksəriyyəti Sovet dövründən qalmış metodlarla işləyir. Bunu biz bütün səviyyədə, bütün tədris fənlərinin tədrisində gördük. Əsasən, mühazirə, əzbərləmə və qeydlər götürmək kimi metodlara daha çox üstünlük verilir.
15. Etdiyimiz səfərlər, müsahibələr və sinifdə apardığımız müşahidələr əsasında deyə bilərik ki, Avropa Liseyində fəal öyrənmə proqramlarının çox elementləri müvəffəqiyyətlə həyata keçirilir. Keçirilmiş testlərin nəticələri də göstərir ki, bu proqram çox yaxşı nəticə verir.
16. Müşahidələr və müsahibələr nəticəsində belə qənaətə gəldik ki, fəal öyrənmə və məntiqi düşüncə qabiliyyətləri Avropa Liseyində daha yaxşı həyata keçirilir və biz bu elementlərə Açıq Cəmiyyət institutunun (Soros) sponsorluq etdiyi proqramlarda da rast gəldik.
17. Apardığımız müsahibələr əsasında deyə bilərik ki, Turk məktəblərində (həmin məktəblərdə müşahidə aparmamışdıq) yüksək təhsil verilir. Bu zaman digər məktəblərdə işlədilən metod və strategiyalardan fərqli olaraq. bu məktəblərdəki metod və strategiyalar daha mütərəqqidir. Bunu həmin məktəbin tələbələrinin testlərdə əldə etdiyi nəticələr də təsdiq edir.
18. Dövlət təşkilatlarının təşkil etdiyi təkmilləşdirmə kurslarına yeni işləyən müəllimlərin cəlb olunmasına çox az fikir verilir. 146 N-li məktəb yeni işə başlayan müəllimlərin təkmilləşdirilməsi proqramını hazırlayıb. Bu, Qərb təlim metodlarının çoxlu elementlərini özündə birləşdirir. Azərbaycan Müstəqil Müəllimlər Birliyi də yeni işləyən müəllimlərə kömək məqsədilə buna oxşar proqram hazırlayıb. Bu proqram özündə təcrübəli hami-müəllim, yaxşı müəllim obrazı, ehtiyacların qiymətləndirilməsi, peşə mədəniyyətinin yaradılması kimi cəhətləri birləşdirir.
19. Müəllimlərin öz peşə hazırlıqlarını inkişaf etdirmək üçün çox az stimul var. İllərlə qazanılan təcrübəyə, professional hazırlığa, yaxud təkmilləşməyə, tədris müvəffəqiyyətinə görə qiymət verilməməsi buna misal ola bilər.

**Müəllimlərin təkmilləşdirilməsinə və tədrisə təsir edən digər amillər**

20. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanları Azərbaycan məktəblərində tədris edilən proqramları qiymətləndirən əsas vasitədir. Komissiya korrupsiyadan azad olan çox etibarlı bir vəzifəni muvəffəqiyyətlə yerinə yetirməklə bərabər, o eyni zamanda tədris proqramlarının necə mənimsənilməsini göstərən bir ölçüdür. Yəni imtahanların əhatə etdiyi bütün faktiki materialları öyrətməyə kömək edir.
21. İbtidai və orta məktəb arasında bölgü aparmağa ehtiyac yox idi. (Hətta hər iki səviyyə 1-X I sinifləri əhatə etsə belə). Müsahibələr zamanı görüşdüyümüz müəllimlər inadkarcasına belə qeyd edirdilər ki, biz ancaq orta məktəb səviyyəsilə maraqlanırıq. Demək olar, həmişə ibtidai məktəblər haqqında sərğu-sual aparmaq vacib idi. Həmin səviyyədə işləyən müəllimlərlə xüsusi müsahibələr keçirmək xahiş olunurdu və ibtidai məktəbdə dərslərin müşahidə edilməsi məsləhət görülürdü. Bunlar Master və başqalarının (1999) apardığı müşahidə ilə səsləşirdi.

**TÖVSİYƏLƏR**

Aşağıdakı tövsiyələr əldə etdiyimiz faktlar və gəldiyimiz nəticələr əsasındadır.

1. Təhsil Nazirliyi Azərbaycan Müəllimləri Təkmilləşdirmə institutu və Bakı Müəllimləri Təkmilləşdirmə institutunda işləyən metodik müəllimlərin professional səviyyəsinin artirılması üçün müəyyən tədbirlər görməlidir. Eyni zamanda, təklif olunmuş islahatların həyata keçirilməsi işində müəllimlərin bilik səviyyələrinin və fəal öyrətmə haqqında bacarıq və qabiliyyətlərinin artırılması qayğısına qalmalıdır. Xüsusilə fəal təlim prinsiplərinin və düşüncə tərzinin inkişafına köməklik göstərməlidir. Bu məqsədlə xarici ekspertlər həmin institutlarda məsləhətçi kimi işiəyə bilərlər, fəal təlim metodları və yüksək düşüncə qabiliyyəti formalaşdıran təlim metodlarını tətbiq edən xarici ölkələrdə metodist-müəllimlərin və orta səviyyə təhsil idarəçilərinin kurs keçmələrini təmin etmək, beynəlxalq təşkilatlar və qeyri-dövlət təşkilatları ilə Azərbaycanda fəal təlim metodları və düşüncə tərzhini həyata keçirmək üçün əməkdaşlıq etmək lazımdır
2. Təhsil Nazirliyi öz professional səviyələrini artırmış müəllimlə-

rin qiymətləndirilməsi və fərqləndirilməsi üçün müəyyən kriteri-yalar isləyib hazırlamalıdır.

3. Təhsil Nazirliyi Azərbaycanda istifadə olunan təlim metodlarını daha da təkmilləşdirilməsi üçün yollar araşdırmalı, bu məqsədlə fasiləsiz olaraq xarici mütəxəssislərin Azərbaycan müəllimləri və təhsil idarəçilərilə əlaqələri gücləndirilməli, eyni zamanda qabaq cıl müəllimləri, məktəb direktorlarını və potensial imkanları olan gənc müəllimləri təkmilləşdirmə kursları və təcrübə keçmək üçün xaricə göndərmək məqsədə uyğun olardı. ABŞ səfirliyinin Fulbright və IREX proqramları, eləcə də Britaniya Şurasının dilöyrənmə proqramları bu məqsədlərin həyata keçirilməsində köməklik göstərə bilər.
4. Fəal təlim metodları Azərbaycan Respublikası prezidentinin, təhsıl nazirinin, müəllimlərə kömək edən beynəlxalq təşkilatların və Azərbaycandakı məktəblərin əsas məqsədi olduğundan təkmilləşdirmə kurslarında işləyən bütün müəllimlər təklif olunan islahatları həyata keçirmək üçün öz fəaliyyətlərində usaqları öyrətməyin fəal və qarşılıqlı təlim metodlarına üstünlük verməlidiriər. Bunun üçün mühazirə-müzakirə tipli dərslər, materialların yazılı formada təqdim olunması, müəllimlərin öz aralarında, eləcə də metodist-müəllimlərlə fikir mübadiləsi etmək üçün vaxtın müəyyənləşdirilməsi, təlimin məzmunu və metəolarının tətbiqi lazımdır. Buraya metodist- müəllimlərin əyani olaraq yeni metodların nümayişi ilə dərslər təşkil etmələri (məktəblərin özündə bu işin təşkili daha yaxşı olardı), təcrübə dərslərinin video lentinin nümayiş etdirilməsi də aiddir.
5. Təhsil Nazirliyi Bakıdan kənarda təkmilləşmə kurslarının təşkili-nin müstəqilləşdirilməsi yollarını nəzərdən keçirərkən yerli ehti-yacları nəzərə almalıdı. Əgər qabaqcıl yerli müəllmlər dərs de-mək üçün təkmilləşdirmə kurslarına cəlb olunacaqlarsa, onların özləri Bakıda xüsusi kurslarda elə təlim keçməlidirlər ki, peşəkarlıq səviyyələri onlara dərs deyən müəllimlərin səviyyələrinə uyğun olsun.
6. Təhsil Nazirliyi təkmilləşdirmə institutlarının istifadə etmələri üçün Avropa Liseyinin bazasında laboratoriya və professional inkişaf sinfini təşkil etməlidir. Bu, müəllimlərə fəal təlim metodlarının əyani surətdə tətbiqini müşahidə etməyə imkan verərdi. Sonralar bu təcrübə Dünya Bankının şeçdiyi 20 pilot (nümunə) məktəbində

də genişləndirilə bilərdi. Bu dərslərin təşkili zamanı video çəkiliş Azərbaycanın başqa ərazilərində də nümayiş etdirilə bilərdi. Qeyri-dövlət təşkilatları və digər təşkitatların təmsil etdikləri və edəcəkləri proqramların öyrənilməsi üzrə təkmilləşdirmə kurslarında iştirak edənlərin işlədikləri məktəblər sonradan laboratoriya-nümayiş, yaxud professional vərdişlərin inkişaf etdirilməsi və dərslərin video çəkilişi həmin rayonlar üçün potensial baza kimi nəzərdə tutula bilər, nəticədə, təkmilləşdirmə kurslarının institutlarda təşkili bir qədər azalmış olardı.

7. Təhsil Nazirliyi Bakı Müəllimləri Təkmilləşdirilmə İsntitutunun Bakının mərkəzi hissəsinə yaxın yerdə yerləşdirilməsini təmin etsə təkmilləşdirmə kurslarında iştirak edən müəllimlərin nəqliyyatla bağlı çətinlikləri həll edilmiş olardı. Bundan əlavə, Təhsil Nazirliyi təkmilləşdirmənin yüksək keyfiyyətinə cavab verən lazımi şəraiti təmin etməlidir.
8. Azərbaycan Müəllimləri Təkmilləşdirmə Institutu və Bakı Müəllimləri Təkmilləşdirmə institutu Fulbright və İREX proqramı üzrə qrantlar alması mümkünlüyünü nəzərdən keçirməlidir. Bu da müəllimlərin hazırlanmasına və metodistlərin yetişdirilməsi işinə sərf edilərdi. Xəstə və əlil usaqlarla işləyən müəllimlər, çox güman ki, öz ixtisasları üzrə təkmilləşdirmə keçməkdən daha çox xeyir götürərdilər. Onların təlim prosesində qarşılaşdıqları ən böyük çətinlik görmə, eşitmə, əqli cəhətdən zəiflik və psixoloji problemləri olan uşaqlarla işləməkdir.
9. Təhsil Nazirliyi Bakıda və rayonlarda təşkil olunan müəllimləri və metodist-müəllimləri təkmilləşdirmə kurslarının keyfıyyətinin eyni olması üçün müəyyən tədbirlər görməlidir. Bu, xüsusilə qaçqın müəllimlərin və qaçqın uşaqlara dərs deyən başqa müəllimlərin hazırlığında daha vacibdir. Təhsil Nazirliyi kursların formal xarakter daşımasının qarşısını almalı, müəllimlər kurslarda olmaya-olmaya onların iştirak etmələri barədə qeydiyyatlar aparılmamalıdır.
10. Təhsil Nazirliyi Azərbaycanda başqa təşkilatlar, təhsil müəşsisələri və qeyri-dövlət təşkilatlarının təşkil etdikləri təkmilləşdirmə kurslarının da qeydiyyata alnması üçün müəyyən kriteriya və prosedurаları nəzərdən keçirməlidir. Bu cür təkmilləşdirmə kurslarının məqsədləri, vəzifələri, proqramlarənın keyfıyyəti lazımi tələblərə cavab verirsə, Nazirlik onların fəaliyyət dairəsinin genişləndi-

rilməsinə yardım etməlidir.

11. Təhsil Nazirliyi qabaqcıl müəllimlərin professional cəmiyyətlərinin yaradılmasını nəzərə almalıdır. O müəllimlərin ki, onlar öz bacarıq və vərdişlərini bir-birinə öyrətməyə, bir-biri ilə fikir mübadiləsi etməyə, şagirdlərlə iş metodlarını yaymağa, iş təcrübələrinin səmərəliliyini göstərməyə, öz təcrübələrini müxtəlif cəhətlərdən qiymətləndirməyə, başqalarının fikir və təcrübələrini öyrənməyə can atmağa, iş təcrtibələrində oxşar və fərqli cəhətləri aydınlaşdırmağa və nəhayət, öz peşələrində yaxşı təcrübənin tətbiqi üçün qərarlar qəbul etməyə qabildirlər. 12. 13, 14-cü tövsiylərdə bunun üçün hansı tədbirlərin görülməsinin vacibliyi göstərilir.
12. Təhsil Nazirliyi müəllimlərin professional icmalarının inkişaf etdirilməsi üçün professional cəmiyyətlər və təşkilatlar vasitəsilə hansı işlər görməyi nəzərə almalıdır (məsələn, Bakıda ingilis dili müəllimlərinin təşkilatı kimi). Nazirlik gələcəkdə belə professional təşkilatların konfranslar, seminarlar, pesə yigıncaqları kimi vasitələrlə müəllimlərin təkmilləşdirilməsi işinə nə dərəcədə kömək edə biləcəklərini də nəzərə almalıdır. Bunlardan başqa, nazirlik bu sadalanan fəaliyyət növlərinin məqsədləri, məramları, proqramların keyfiyyəti Nazirliyin təşkil etdiyi proqramlarla uyğun gələrsə, onları təsdiq etməlidir.
13. Təhsil Nazirliyi "Azərbaycan müəllimi" qəzetinin bütün müəllimlərə çatdırılmasını təmin etməklə onun müəllimləri təkmilləşdirmə işində güclü bir vasitə kimi səmərəliliyini daha da artirmalıdır. Qəzetin məzmununda təhsil islahatında nəzərdə tutulan vəzifələrə aid olan yeni təlim metodları haqqında müəllimlərə məlumatlar verilməlidir. Bu qəzet respublikanın hər yerindən olan müəllimlər üçün fikir mübadiləsi vasitəsinə çevrilməlidir. Qəzetin səhifələrində tədris-plan proqramlarının məzmununda olan dəyişikliklər, təhsil siyasəti və müəllimləri təkmilləşdirmə haqqında da qiymətli məlumatlar dərc olunmalıdır.
14. Təhsil Nazirliyi və müəllimləri təkmilləşdirmə institutları yeni müəllimlərin peşə hazirlıgının yüksəldilməsi üçün təşəbbüs proqramlar işləyib hazırlamalıdırlar. Bu proqramda qabaqcıl veteran müəllimlərin yeni işə başlayan müəllimlərə kömək formaları, başqa müəllimlərlə bu və ya digər problemlər haqqında fikir mübadilələri mərkəzləşmis halda deyil, fərdi halda müəllimlərin təkmilləşdirmə kurslarının təşkili nəzərə alınmalıdır. Bu işdə Bakıda-

kı 146 N-li məktəbin gənc müəllimlərin peşə hazırlığını artırmaq sahəsində təcrübəsindən, ingilis dili müəllimlərinin "təcrübə mübadiləsi" modelindən və Azərbaycan Müstəqil Müəllimlər Cəmiyyətinin həyata keçirdiyi kömək sistemindən istifadə etmək səmərəli olardı.

15. Təhsil Nazirliyi əmin olmalıdır ki. müəllimlər təkmilləşdirmə kurslarına cəlb olunmamışdan qabaq həmin kursların həsr olunduğu dərsliklər. məlumat-sorğu kitabları, bu və başqa vasitələrlə təmin olunsunlar.
16. Təhsil Nazirliyi təkmilləşdirmə kurslarının mövzuları və materiallarının müəllimlərə yazılı formada verilməsi üçün müəyyən pul vəsaiti ayırmalıdır. Bununla da təkmilləşmə kurslarını keçən müəllimlər mühazirəni üzündən oxumaqdan. iştirak edən müəllimlər isə məcburi surətdə qeydlər götürməkdən azad olardılar və kurs iştırakçıları arasında cansixici mühit çox olardı. Bu həmçinin fəal öyrənmək, bir-biriləri ilə fikir mübadiləsi etmək və metodist-müəllimlərin uşaqlarla sınaq dərslərinin müşahidəsi üçün çoxlu vaxt qazanmağa imkan verərdi.
17. Təhsil Nazirliyi öz peşə təcrübələrini artırmaq istəyən müəllimlərin rəğbətləndirilməsi üçün müəyyən kriteriya və proseduralar fikirləşməlidir. Buraya magistr dərəcələrinin qazanılması və başqa sertifikat əldə edilməsi, bilik və bacarıq əsasında maaşların artırılması, təhsildə əla göstəricilərə görə mükafatlandırma aid ola bilər.
18 Təhsil Nazirliyi ictimaiyyətdə, təhsil müəssisələrində və xüsusilə də orta məktəb müəllimləri və metodistlərində ibtidai təhsil səviyyəsinin daha möhkəm baza üzərində qurulmasının vacibliyi haqqında fikir formalaşdırmalıdır, ibtidai məktəb müəllimlərinə də orta və ali məktəb müəllimləri kimi qiymət verilməlidir. Məhz ibtidai məktəb müəllimləri ilkin olaraq qarşılıqlı təlim metodlarını və uşaqlarda müstəqil düşüncə qabiliyyətlərinin inkişaf etdirilməsini həyata keyirirlər.
19. Təhsil Nazirliyi təkmilləşmə kurslarının təşkilində müəllimlərin fərdi təlim ehtiyaclarını nəzərə almalı, onlar üçün daha lazımlı fənlərin tədrisini təşkil etməlidir. Əgər müəllimlər daha çox hansı təlim ehliyaclarının olmasını söyləməkdə çətinlik çəkirlərsə, bu zaman məktəb direktoru və müəllim mövcud olan çatışmazlıqları aradan qaldırmaq üçün birgə söhbətlər etməli, müvafiq təkmilləşdirmə kurslarının təşkilini müəyyənləşdirməlidirlər. Bu cür təcrü-

bə məktəb rəhbərlərinin də təkmiləşdirilməsində istifadə oluna bilər.

20 Təhsil Nazirliyi Azərbaycan Elmi Tədqiqat Pedaqogika Institutunun və təhsil problemləri üzrə məsğul olan Metodiki Mərkəzi birləşdirməyə hazırlaşdığı üçün nazirlik hər iki təşkilatda olan işçilərin professional vərdişlərini qiymətləndirməlidir. Əgər Azərbaycan Elmi tədqiqat Pedaqogika institutu elmi dərəcəli professional hazırlığı yüksək kadrlara malikdirsə, təhsil problemləri ilə məşğul olan Metodiki Mərkəzdə dərs demək təcrübəsi çox və sinif mədəniyyətini başa düşən kadrlar var. Bu nəzəriyyədən və təcrübədən qüvvətli olan mütəxəssisləri müvəffəqiyyətlə bir yerə toplamaq üçün hər iki təşkilatın əməkdaşları bir-birlərinin istedad, potensial və səylərinə qarşılıqlı hörməti inkişaf etdirməlidirlər. Ayrı-ayrılıqda lazımi bilik. bacarıq və professional təcrübə olmadan qarşıya qoyulmuş məqşədləri yerinə yetirmək çətindir. Qüvvələr birləşəndə isə daha səmərəli iş görmək olar.

21 Təhsil Nazirliyi. eyni zamanda, fəal öyrənmə strategiyaları haqqinda biliyin artırılması və yeni yaradılan Təhsil Problemləri institutunda da kadrların idrakı hazirlıq səviyyələrinin yüksəldilməsi sahəsində hər iki təkmilləşdirmə institutlarında gördüyü tədbirləri həyata keçirməlidir.

22 Azərbaycan məktəblərində birbaşa təlim metoduna əsaslanan tədris proqramlarını azaltmaq üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası hər fənn blokları üzrə daha çox düşünməyə vadar edən (nəinki faktiki informasiyanı sadalayan) testlər tərtibinə fikir verməlidir. Əgər düşündürücü və yüksək məntiqi suallar imtahan testlərinə daxil edilsə, onda müəllimlər həmin istiqamətdə sagirdləri öyrədərlər.

23 Müəyyən edilmiş təhsil islahatlarını həyata keçirmək üçün Təhsil Nazirliyi hər bir məktəbdə, əsas pilot (nümunə) məktəblərində hər bir müəllimin təkmilləşdirilməsi strategiyasını həyata keçirməli-dir. Məktəblərdə tənqidi düşüncəyə malik olan müəllimlər qrup halında (3 nəfər müəllim olmaqla) yeni fəal təlim strategiyalarını, siniflərdə yüksək məntiqi inkişafı necə təmin etməyi və islahatın başqa əsas elementlərini öyrənməlidirlər və bütün bunları öz dərslərində məktəb rəhbərliyinin və bir-birinin yardımı ilə tətbiq etməlidirlər. Onlar inam və müvəffəqiyyət qazandiqca öz fikir və düşüncələrini öz həmkarları ilə bölüşdürməyə hazır olurlar. Həmin 3 müəllimin

hər bir məktəbdə seçilməsi kriteriyasına bunları daxil etmək olar: a) müəllimin müvəffəqiyyətləri; b) yeni ideya və islahatları həyata keçirməyə meylliliyi; c) həmkaralaının hörmət və rəğbətini qazanmaqla müəyyən idarəçilik imkanları nümayiş etdirənlər; d) yüksək təşəbbüskarlıq.

24. Təhsil Nazirliyi təklif olunan islahatları həyata keçirmək üçün "metodistin metodisti" modelindən də istifadə etməlidir. Hər bir məktəbdə tənqidi düşüncə qruplarından (3 təkmilləşdirilmiş müəllim) başlayaraq. həmin müəllimlər sonradan məktəbdə başqa müəllimləri təkmilləşdirər ki, onların da bəziləri daha sonra metodist kimi fəaliyyət göstərərlər. Əgər Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər müəllim kadrları hazırlayan institutlar da bu təcrübəni yerinə yetirsələr, onda bu proses sürətlənər və yeni müəllimlər də islahatların həyata keçirilməsinə hazır olarlar. Müvəffəqiyyət qazanmaq üçün bu "metodistin metodisti" modeli bütün hallarda şagirdlərlə aparılan nümunə dərslərində tətbiq olunmalıdır. Bu, öyrənmək istəyən müəllimlərə əldə etdiklərini tətbiq etmək imkanı verər və müşahidə sinifləri vasitəsilə həyata keçirdikləri metodlara bir kömək olardı (bu zaman müəllimlərin dərsdə fəaliyyəti qiymətləndirilmir, daha çox tövsiyə, məsləhət verilir). Hami müəllim təcrübəsi də bu işdə faydalı olardı.
25. Təhsil Nazirliyi nəzərə almalıdır ki, müəllimlərin təkmilləşdirilməsi işi qısa zaman çərçivəsində atılan addımdır və bu ancaq müəllimlərin professional birliklərinin inkisaf etdirilməsi ilə uzun-ömürlü ola bilər. Bu professional birlik müəllimlərin təhsil müvəffəqiyyətlərini və dəyışməyə meylli səylərini təmin etməli, həmçinin müəllimlərin yaratdıqları təşkilat və strukturları qiymətləndirməlidir.

**ƏDƏBİYYAT**


1. Axundov A. Azərbaycan Respublikası: Təhsil keçid dövründə. Bakı. Azərbaycan Təhsil Nazirliyi.
2. Azərbaycan Respublikası(1998) Təhsil Qanunu. 1-7 bölmələr (layihə, dekabr. 1998). Bakı, Azərbaycan Təhsil Nazirliyi.
3. Təhsil Nəzəriyyəsi (layihə, 19 oktyabr, 1998). Bakı, Azərbaycan Təhsil Nazirliyi.
4. .Azərbaycan Respublikasında tədris plan-proqramlarının hazırlan-

ması (1999). Bakı. Azərbaycan Təhsil Nazirliyi.
5. Masters B. Qurbanov K. Bağırzadə M. və Məcidova S. (1999) Azərbaycan Respublikasında müəllim kadrlarının hazırlanması: İlkin tədqiqat (layihə, 13 iyun. 1999). Bakı Azərbaycan Təhsil Nazirliyi.
6. Açiq Cəmiyyət İnstitutu-Azərbaycan (1998). 1999-2001-ci illər üçün təhsil strategiyası. Bakı Azərbaycan, ACl.
7. Dünya Bankı (1999). 3,700,000 dəyərində kredit, Azərbaycanda Təhsil İslahatı üçün 4 may, 1999. hesabat N 18991-AZ. Avropa və Mərkəzi Asiya Ərazi Ofisi. Humanitar İnkişaf bölməsi.

*Executive Summary*

## A STUDY OF INSERVICE EDUCATION AND CLASSROOM PRACTICES IN AZERBAIJAN: INTO THE XXI CENTURY

***Alan* N. *CRA WFORD***
*(California State University, Los Angeles USA)*

The major purposes of this study were to determine the nature of in service education for primary and secondary teachers in Azerbaijan and to identify major instructional practices, methodologies, and strategies used by teachers in classrooms in Azerbaijan. Three sources of data used in the study included government, agency, and NGO publications; interviews with government, school, agency, and NGO officials: and observations of classroom practice in a stratified sample of schools in and near Baku.

The Azerbaijan education code requires that teachers in grades one-eleven complete a course of inservice education every five years. The two major certified providers of inservice education for teachers are the Azerbaijan and Baku Inservice Education Institutes. Other institutions of higher education, international agencies and organizations such as the World Bank and UNICEF, and non-governmental organizations (NGOs) have a minor and generally non-certified role in the process.

As in most post-Soviet societies, Azerbaijan has a legacy in education from the preindependence period that is, in part, positive, especially in its very strong mathematics and science programs. However, a lecture mode of instruction typically pervades all grade levels and subject areas in the primary and secondary schools.

Classroom practices in Azerbaijan were examined through observation of 200 lessons in a sample of fourteen state-funded schools. Most teachers were using a lecture or transmission mode of instruction, although more progressive strategies were observed in the European Lyceum and in Turkish schools, where results are very good.

Two other institutes contribute to the inservice education of teachers in Azerbaijan. The principle focus of the Azerbaijan Pedagogical Research Institute is to conduct educational and pedagogical research on the content of each discipline at each level and to prepare teachers instructional books (guides) and ancillary materials to support instruction in those disciplines. The Scientific and Methodological Center on Educational Problems prepares educational plans and programs. According to the Minister of Education, the Institute and the Center will be merged into the Institute of Educational Problems next year.

The following conclusions were drawn:

The inservice education strategies used by the Azerbaijan and Baku Inservice Education institutes are very similar, largely characterized by a formal lecture modality, with teachers in a very passive mode. The quality of trainers in both institutes is inconsistent, with many found to be unsatisfactory and outdated. Inservice education from both institutes tends to be theoretical, rather than practical. Teachers express the need for the integration of more practice, more demonstrations of strategies with children, and more opportunities to interact with ideas and each other. The clear perception of teachers and school administrators in the regions is that the quality of inservice education and of trainers provided to them is not as high as the level in Baku.

Many NGOs offer inservice education for teachers, some of it very highly regarded by participants. These include the Open Society Institute (Soros), PROFILE, and the Azerbaijan Independent Union of Teachers. This training is generally not certified by the Ministry of Education. Foreign experts are making some contributions, to

educational reform in Azerbaijan- and many Azeri educators have had opportunities to travel abroad for training experiences.

Based on systematic classroom observations, most teachers in Azerbaijan classrooms are employing classroom practices and strategies from the Soviet era. They are characterized at all levels and in all academic disciplines by lecture, recitation, and note-taking. Based on classroom observations and interviews, active learning and higher order thinking are being promoted by the European Lyceum anile in programs sponsored by the Open **Society** Institute (Soros).

The following recommendations are based on the findings and conclusions of the study:

fhe professional level of trainers at the Azerbaijan and Baku Inservice Education Institutes should be improved, especially with respect to principles of active learning and higher order thinking. Trainers in all inservice education courses should model in the training they conduct the active and interactive learning strategies advocated for teaching children in proposed reforms. The Ministry of Education should consider basing the inservice education of teachers on their individual needs, and the teachers should have a strong voice in selecting the courses of most interest and need to them.

The set of instructional strategies used by teachers in Azerbaijan should be enriched by bringing foreign experts to work with Azeri teachers, inservice education trainers, and administrators and by sending key Azeri educators, including school directors and outstanding teachers who demonstrate potential for future leadership, abroad for training and experiences. The Azerbaijan and Baku Inservice Education institutes should consider the possibility of identifying resources in special education from other countries, such as the Fulbright and IRLX programs of the United States that could be used to prepare teachers and/or trainers in this area of great need.

The Ministry of Education should consider exploring ways of decentralizing inservice education in regions outside of Baku in such a way that local needs are recognized. If outstanding local teachers are to be employed as trainers, then they themselves should be trained in Baku so that they are at the same level of proficiency as trainers there.

The Ministry of Education should consider establishing a laboratory/demon strait on or professional development school at the European Lyceum for the use of the inservice education institutes.

Expanding later to other pilot schools. In order to accomplish the goals of proposed educational reforms, the Ministry of Education should consider a strategy of developing a critical mass of well prepared teachers in every school, beginning from a cluster of key pilot schools.

"The Ministry of Education should consider how to ensure that the quality of inservice education and of trainers in regions far from Baku is the same as in Baku, including in refugee areas.

The professional level of trainers at the Azerbaijan and Baku Inservice Education Institutes should be improved', especially with respect to principles of active learning and higher order thinking. Trainers in all inservice education courses should model in the training they conduct the active and interactive learning strategies advocated for teaching children in proposed reforms. The Ministry of Education should consider basing the inservice education of teachers on their individual needs, and the teachers should have a strong voice in selecting the courses of most interest and need to them.

The set of instructional strategies used by teachers in Azerbaijan should be enriched by bringing foreign experts to work with Azeri teachers, inservice education trainers, and administrators and by sending key Azeri educators, including school directors and outstanding teachers who demonstrate potential for future leadership, abroad for training and experiences. The Azerbaijan and Baku Inservice Education institutes should consider the possibility of identifying resources in special education from other countries, such as the Fulbright and 1R1-X programs of the United States that could be used to prepare teachers and/or trainers in this area of great need.

The Ministry of Education should consider exploring ways of decentralizing inservice education in regions outside of Baku in such a way that local needs are recognized. If outstanding local teachers are to be employed as trainers, then they themselves should be trained in Baku that they are at the same level of proficiency as trainers there.

The Ministry of Education should consider establishing a laboratory/demon strait on or professional development school at the European Lyceum for the use of the inservice education institutes, expanding later to other pilot schools. In order to accomplish the goals of proposed educational reforms, the Ministry of Education should consider a strategy of developing a critical mass of well prepared teachers in every school, beginning from a cluster of key pilot schools.

The Ministry of Education should consider how to ensure that the quality of inservice education and of trainers in regions far from Baku is the same as in Baku, including in refugee areas.

The Ministry of Education should consider that inservice education is a short-term step that can only be sustained irreversibly with the long-term development of a professional community of teachers. This professional community should provide for recognition of teachers successes and efforts to change and also for valuing the professional organizations and structures developed by teachers.